www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 iyun 2016-cı il Cümə axşamı № 131 (6452) Qiymәti 60 qəpik

**Xəbər**

## Bakıda vəzifəli şəxsi aldadıb 50 min manatını aldılar

yazısı səh.14-də

**Gündəm**

### Rusiyanın Qarabağ məsələsini “təkbaşına” həll etmək planı



Prezidentlərin Sankt-Peterburq görüşündə ATƏT “ofsayd”da saxlanıldı; “Putinin çantası”nda nə var, Azərbaycan və Ermənistan prezidentlərinə nə təklif ediləcək?

yazısı səh.11-də

### “Evrostroy-S” şirkətindəki davanın təfərrüatları bilindi

yazısı səh.3-də

### Almaniyaya qarşı “soyqırım” etirazlarının səngiməsinin səbəbi

yazısı səh.6-da

### Təhsil eksperti hərbi xidmətə möhləti təqdir edir, amma...

yazısı səh.3-də

### 7 gün istirahət elə, 12 ay pulunu ödə...

yazısı səh.10-da

### Azərbaycan demoqrafik problemin astanasında

yazısı səh.12-də

### Bu gün ingilis derbisidir: İngiltərəni ancaq qələbə xilas edə bilər

yazısı səh.15-də

### Problemli kreditlər artır - aidiyyəti qurumlar gözləmə mövqeyindədir...

yazısı səh.10-da

### “Bakıda 9 bal gücündə zəlzələ olarsa, köhnə binalar dağılacaq”

yazısı səh.13-də

### Goranboyda avtomobil ağaca çırpılıb, sürücü ölüb

yazısı səh.14-də

**Ramazan ayının 10-cu günü**

İftar 20.29. İmsaq 03.08-dək (QMİ)

10-cu günün duası: “İlahi, bu gün məni Sənə təvəkkül edənlərdən qərar ver! Belə bir gündə Sənin hüzurunda yaxşı işlərə müvəffəq olanlardan hesab et! Məni Öz ehsanınla yaxın bəndələrindən qərar ver! Ey istəyənlərin Son İstəyi!”

İftar duası: “Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla”.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Azərbaycan strateji müttəfiqi ilə strateji tərəfdaşı arasında

# QARABAĞ DÜYÜNÜ VƏ RUSİYA-TÜRKİYƏ BARIŞI - BAKI İKİ KONFLİKTİN EPİSENTRİNDƏ!

Kremlin münaqişənin həllində şəriksiz moderatorluq iddiası onu Ankara ilə münasibətləri ılıqlaşdırmaq zorunda qoyur; Ərdoğanın sülh məktubuna Putinin verəcəyi cavab Qarabağ və müharibə məsələsinə də işıq sala bilər, çünki...




yazısı səh.9-da

## YAP-çı deputatdan iyun olaylarına dair sensasion açıqlamalar

**Eldar İbrahimov:** “Heydər Əliyevin əl-ayağına düşüb yalvarırdılar ki, gəl Bakıya”

yazısı səh.8-də



*Firudin Cəlilov:*

### “Elçibəylə bir hərfin üstündə bir-birimizi qırdıq, küsülü qaldıq”

yazısı səh.7-də



*Mehman Əliyev:*

### “O videoların sayı 2800-dən çoxdur”

yazısı səh.5-də




### Amnistiyanın icrasına başlanıldı - Hacı Məmmədovun arvadı da azad edildi

yazısı səh.5-də

# 16 iyun 2016

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016



## Prezident AŞ PA həmməruzəçilərini qəbul etdi

**Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predanı və Stefan Şennakı qəbul edib. Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Preda və Stefan Şennak ölkəmizə ələmətdar bir gündə - 15 iyun Milli Qurtuluş Günündə səfər etmələrinin əhəmiyyətini bildiriblər. Onlar Bakıda keçiriləcək "Formula-1" yarışlarının beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyini vurğulayıblar.**

Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığa toxunan qonaqlar bu əməkdaşlığın uğurla inkişaf etdiyini diqqətə çatdırıblar. Həmməruzəçilər "Məhkum olunmuş bir sıra şəxslərin əfv olunması haqqında" Azərbaycan Prezidentinin Sərəncamının və Amnistiya aktı haqqında Qanunun qəbul edilməsinin Avropa Şurası tərəfindən alqışlandığını dedilər və bunların önəmini vurğulayıblar.

Dövlət başçısı ölkəmiz ilə Avropa Şurası arasında uzun illər səmərəli və konstruktiv əməkdaşlığın həyata keçirildiyini bildirib və əməkdaşlığımızın hazırkı səviyyəsindən məmnunluğunu ifadə edib.

Prezident İlham Əliyev Azərbaycanın bu təşkilatın ən fəal üzvlərindən biri olduğunu qeyd edib, əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti və əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Şirvanlılar məscid yolunun təmiri üçün müraciət yazdılar

**Şirvan şəhərinin kənd evləri adlanan yaşayış massivində yaşayan sakinlər ərazidəki məscid yolunun bərbad vəziyyətdə olmasından narazıdırlar. Sakinlər bildirirlər ki, A.Mustafayev küçəsində yerləşən məscidə gedən avtomobil yolu yerli icra hakimiyyəti tərəfindən 2 dəfə asfaltlaşdırılmışdır.**

Lakin 5 il əvvəl su xətləri yenilənərkən məscidə gedən yollar qazılıb. Bundan sonra məscid yolu bərbad vəziyyətə düşüb. Su xəttini çəkən "Azərsu" ASC-dən sakinlərə deyiblər ki, məscid yolu asfaltlanacaq. Amma vəd yerinə yetirilməyib. 5 ildir ki, məscidə gedən yol keçilməz olub. Sakinlərin sözlərinə görə, qışda yağış, qar yağanda yolda ancaq qayıqla hərəkət etmək mümkündür. Məscidin qarşısındakı yolda qazıntılara su dolaraq gölməçə yaranır və məscidə gediş-gəliş mümkünsüz hala gəlir. Yay aylarında isə dərin çuxurlar, çuxurlardan qalxan toz-tozanaq yolu piyada və maşınla keçməyi çətinləşdirir. Sakinlər deyir ki, neçə ildir ki, məscidə ahıl, qoca, yaşlı, cavan, qadın, kişi ibadətini etməyə getmək üçün zülm çəkir.

Sakinlər baş ağrısına çevrilmiş yolun 500 metrə yaxın olduğunu deyirlər və ASC rəhbərliyindən xahiş edirlər ki, yolun asfaltlanması haqda vədi nəhayət ki, yerinə yetirsinlər. Müqəddəs Ramazan ayında inanclı ahıllar xahiş edirlər ki, problemi işıqlandıraq. Ümid edirlər ki, məsələ ictimailəşəndən sonra Allah Evinin - məscidin yolu yenidən çəkilər: "Bu, Ramazan ayında ən böyük ibadətlərdən olar. Allah hər kəsin müqəddəs Ramazan ayında köməyi olsun".

❑ **E.MƏMMƏDƏLİYEV**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.

# İlqar Məmmədov 4-cü dəfə doğum gününü həbsxanada keçirdi

### Vəfa Məmmədova: "Bu illər bizim üçün asan keçmədi"

**Həbsdə olan REAL sədri İlqar Məmmədovun iyunun 14-də 46 yaşı tamam olub. 4-cü dəfə doğum gününü məhbəsdə qeyd edən vicdan məhbusunun ünvanına sosial şəbəkələrdə çoxsaylı təbrik mesajları ünvanlanıb. REAL sədri ilə bağlı tərəfdarlarının həbsxanaya göndərdikləri məktubların ona çatdırılmasına icazə verilməyib.**



**Amma bununla belə, Məmmədov vəkili vasitəsilə onu təbrik edən hər kəsə təşəkkür edib. Bu barədə onunla görüşən müdafiəçisi Cavad Cavadov öz feysbuq səhifəsində status paylaşıb:** "Bu gün İlqar Məmmədova 2 saylı cəzaçəkmə müəssisəsində ad gününü, özümün zümzümə etdiyim "happy b-day" mahnısının sədaları altında təbrik etmək və söhbətləşmək imkanım oldu. İlqar bəy onu təbrik edən bütün dostlara, ad günü ilə bağlı başladılmış kampaniyada əziyyət çəkənlərə minnətdarlığını bildirdi".

**REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova növbəti doğum gününü onunla birlikdə qeyd edəcəklərinə inandıqlarını bildirdi:** "Bu illər bizim üçün asan keçmədi. Hamımız üçün ağır illər oldu. İlqar həbsdə olandan doğum gününü dostlarla birlikdə qeyd edirik. Bu dəfə də REAL-ın ofisində dostlarla birlikdə ad gününü keçirdik. Doğum günündə onun yanına gedə bilmədik. Çünki keçən həftə getmişdik. İnanıram ki, gələn doğum gününü İlqar ailəmizlə, dostlarla birlikdə qeyd edəcək. Həmişə olduğu kimi, bir çox beynəlxalq təşkilatlardan, siyasilərdən çoxsaylı təbrik mesajları gəldi. Özü zəng edə etmədi, vəkili getmişdi deyə. Yəqin yaxın günlərdə zəng edəcək".

**V.Məmmədova yaxın vaxtlarda REAL sədrinin işindən kasasiya şikayətinin veriləcəyini də söylədi:** "Özünün vəziyyəti yaxşıdır. Hər şey hazırda qaydasındadır. Apelyasiya Məhkəməsinin sonuncu qərarından yaxın günlərdə Ali Məhkəməyə vəkillər tərəfindən şikayət ediləcək".

İlqar Məmmədov 2013-cü il fevralın 4-də İsmayıllı rayonunda kütləvi etiraz aksiyası ilə bağlı hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə, xuliqanlıq ittihamları ilə həbs edilib. 2014-cü il martın 17-də 7 il müddətinə azadlıqdan məhrum edilib. 2015-ci ilin əvvəlində Avropa İnsan Haqları Məhkəməsi İ.Məmmədovun buraxılması barədə qərar çıxarıb.



## Obama qəzəbləndi: "ABŞ üçün İslam yox, Tramp təhlükədir"

**"The Guardian" yazır ki, Barak Obama ABŞ prezidentliyinə ehtimal olunan respublikaçı namizəd Donald Trampı indiyədək ən kəskin tənqid atəşinə tutub.**

Obama Trampın Orlando qətliamına reaksiyasını "Amerika dəyərlərinə xəyanət" adlandırıb.

Qeyd edək ki, Donald Tramp Orlando qırğını üçün bütün müsəlmanların məsuliyyət daşıdığını bəyan etmişdi.

Barak Obama Donald Trampın "təhlükəli zehniyyəti" barədə xəbərdarlıq edərək deyib ki, namizədin çıxışları "Amerika demokratiyasının təbiəti üçün təhlükə təşkil edir".

"İndi bizə ehtimal olunan respublikaçı namizəd təklif verir ki, bütün müsəlmanların Amerikaya mühacirət etməsinə qadağan qoyaq... O deyir ki, zorakılıqda bütöv bir dini icmanın əli var. Belə münasibət bizi harayadək apara bilər? Orlando qatili, San Bernardino qatillərindən biri, Fort Hodd qatili - onların hamısı ABŞ vətəndaşları olublar. İndi deyirsiniz biz bütün Amerika müsəlmanları ilə fərqli rəftar edək? Onların hamısını müşahidə altına alaq?", - deyib Obama, -

"The Guardian" yazır ki, Obama Orlando qatilinin "İslam təliminin internetdən alınmış və təhrif olunmuş informasiyası ilə radikallaşdığını" desə də, bundan bir qədər də irəli gedərək "Trampın özünü real təhlükə" adlandırıb.

"Biz əvvəllər tariximizin belə məqamlarından keçmişik. O zaman biz qorxumuzdan çıxış edərək davranırdıq və sonra peşman olmuşduq. Biz o vaxt görmüşdük ki, hökumətimiz öz vətəndaşlarımıza inanmır və sonralar bu, bizim tariximizin xəcalətli hissəsinə çevrildi", - deyə prezident "Makkartizm" dövrünü xatırladıb.

## AĞ Partiya qurultay üçün yer axtarır

### Əhəd Məmmədli: "İmtina cavablarında qərəz görürük, bizə yer verilmir"

**AĞ Partiya qurultay keçirmək üçün yer tapa bilmir. Müraciət edilən hotel və digər obyektlər onlara qurultay keçirilməsi üçün yer ayırmaqdan imtina edirlər. Bu barədə musavat.com-a "AĞ blok"un təsisçilərindən olan Əhəd Məmmədli məlumat verib.**

Qeyd edək ki, AĞ Partiya Vahid Azərbaycan Partiyasının qurultayında ad dəyişərək formalaşacaq. Ancaq qurultayın keçirilməsi müşkülə çevrilib. Partiyanın qurultaya hazırlıq üzrə təşkilat komitəsi ondan artıq yerə müraciət etsə də, müsbət cavab ala bilməyiblər. "Bir neçə yerdən qurultayımızın keçirilməsi ilə bağlı mənfi cavab gəlmişdi. Biz sonunda Beynəlxalq Mətbuat Mərkəzinə müraciət etdik. Üç gün sonra cavab veriləcəyini bildirsələr də, sonunda cavab mənfi oldu. Bizə bildirdilər ki, avqust ayına qədər yerlər dolub. İndiyə qədər BMM-də müxalifətin bir çox tədbirləri olmuşdu, ona görə düşündük ki, bizim tədbirimizə də müsbət cavab verilər. Bu, obyektiv cavab deyil, çünki yerlər dolu olsaydı, əvvəldən deyərdilər. Biz imtina cavabında bir qərəz görürük.Bu, antidemokratik bir addımdır",- deyə Ə.Məmmədli bildirib. O, həmçinin qeyd edib ki, qurultaylarını iyunun 19-da keçirəcəklər. Məkan kimi müxalifət partiyalarından ADP-nin, yaxud VHP-nin qərargahı nəzərdə tutulur.

Qeyd edək ki, AĞ Partiyanın qurultayı mayın 29-na planlaşdırılsa da, məkan tapılmaması səbəbindən təxirə salınıb. Sonradan iyunun 5-də, daha sonra 12-də keçirilməsi planlaşdırılsa da, yer verilməməsi səbəbindən alınmayıb.

❑ **RÖYA**

## Həmməruzəçilər hüquq müdafiəçiləri və müxalifətçilərlə görüşdülər

**Bakıda səfərdə olan Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Stefan Şennak və Sezar Preda hüquq müdafiəçiləri ilə görüşüblər.**

APA-nın məlumatına görə, görüşdə Azərbaycanda fəaliyyət göstərən hüquq-müdafiə təşkilatlarının rəhbərləri Novella Cəfəroğlu, Səidə Qocamanlı, Səadət Bənəniyarlı və digərləri iştirak edib. Görüşdə ölkədə insan hüquqlarının vəziyyəti, hüquq-müdafiə təşkilatlarının fəaliyyəti barədə fikir mübadiləsi aparılıb.

AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçilərinin bu gün həmçinin müxalifət təmsilçiləri ilə görüşləri olub. Müsavat başqanı Arif Hacılı, AXCP sədri Əli Kərimli, Milli Şuranın sədri Cəmil Həsənli və digərlərinin iştirak etdiyi görüşdə ölkədəki ictimai-siyasi vəziyyət müzakirə edilib.



Sərdar Cəlaloğlu

## ADP Antiböhran Koalisiyasından ayrılır

**Azərbaycan Demokrat Partiyası Müxalifətin Antiböhran Koalisiyasından çıxır. Bu barədə "Yeni Müsavat"a daxil olan məlumatı dünən dəqiqləşdirmək üçün ADP sədri Sərdar Cəlaloğlu ilə əlaqə saxladıq. Sərdar Cəlaloğlu xəbərin doğru olduğunu təsdiqlədi.**

O qeyd etdi ki, ADP İdarə Heyətinin üzvlərinin bir çoxu Antiböhran Koalisiyasını öz vəzifəsini yerinə yetirmiş bir təşkilat kimi görür. Ona görə də bu qurumda qalmamağın daha doğru olduğunu düşünürlər: "Əslində ADP Antiböhran Koalisiyasında müşahidəçi qismində iştirak edib. İndi partiyada belə bir fikir var ki, biz orada müşahidəçi qismində fəaliyyətimizi də dayandıraq. Bu dəqiqdir. Məsələ partiyanın İdarə Heyətində müzakirə olunub. İdarə Heyətində ümumi qərar var ki, ADP Antiböhran Koalisiyasında fəaliyyətini dayandırsın".

Qeyd edək ki, 10 partiyanın, bir neçə ictimai təşkilatın və tanınmış şəxslərin üzv olduğu Antiböhran Koalisiyası ötən ilin dekabrında manatın ikinci devalvasiyasından sonra ölkədə iqtisadi böhranın yarandığı əsas göstəricələrə təsis edilib. İndiyə qədər bu qurumun böhran əleyhinə bir neçə böyük tədbiri keçirilib, təkliflər paketi hazırlanıb və hökumətə təqdim edilib. 5 aydan artıqdır fəaliyyət göstərən Antiböhran Koalisiyasının rəhbərliyinin həftədə bir dəfə iclasları keçirilir. Qurum indiyədək hər hansı etiraz aksiyası keçirməyib.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016

**Ötən saylarımızdan birində "Evrostroy-S" şirkətinə basqın oldu - səbəb və təfərrüatlar..." sərlövhəli yazı dərc etmişdik. Həmin yazıda şirkətdə vaxtilə şərik olmuş Rafael Qarayevlə Bəxtiyar Təhməzov və İlqar adlı işçinin davasından söhbət açılırdı. Qeyd olunurdu ki. R.Qarayev şirkətin ofisinə idmançıların əhatəsində gəlib.**

# "Evrostroy-S" şirkətindəki davanın təfərrüatları bilindi

## Şirkət müştərinin aldığı obyektin ona verilməsini tələb edir

**Bu yazı dərc olunandan sonra redaksiyamıza müraciət edən Tərlan Ramiz oğlu Əlibalayev deyib ki, əslində R.Qarayev ofisə tək gəlib və sonradan davaya çevrilən mübahisə təqdim edildiyi tərzdə baş verməyib. T.Əlibalayev deyib ki, R.Qarayev "Evrostroy-S"də şərik olduğu vaxtda şirkətdən 350 kvadrat metrlik obyekt alıblar:** "2014-cü il iyulun 22-də "Evrostroy S" MMC-dən obyekt almışıq. Həmin obyekt 350 kvadrat metrdir. Obyekti almaq üçün evlərimizi, maşınlarımızı, ailə-uşağımızın qızıl-zinət əşyalarını satmışıq. İllərlə qazandığımız pulları da üstünə qoyub 705 min manat "Evrostroy S"in Yasamal rayonu, Şərifzadə küçəsindəki ofisində ödəmə edib obyektin sənədlərini - maliyyə arayışı, çertyoju almışıq. Orada əl sıxıb sağollaşıb ofisi tərk etmişik".



**T.Əlibalayev deyib ki, ofisdə obyekti alarkən Rafael Qarayev də orada olub:** "O dövrdə Rafael Qarayev həmin şirkətin şəriklərindən biri, işi aparan əsas şəxs idi. Orada çoxlu digər şəxslər də vardı. Pulumuzu ödəyəndən sonra sənədləri bizə Xaliq Pənahov verdi.

Razılaşmaya görə, 2015-ci ilin əvvəlində obyekti təhvil verməli idilər. Lakin obyektin təhvil verilməsi gecikdirildi. Biz də pulumuzu geri tələb etdik. Hər dəfə bizə "gələn ay obyekti sizə təhvil verəcəyik" deyib fevral və dekabr aylarındakı 2 devalivasiyanı ötürdülər. Ona görə də biz qəti tələblə pulumuzun geri qaytarılmasını və ya dərhal obyektin bizə təhvil verilməsini istədik. Bizdən 2 ay vaxt istədilər. Pulumuz orada qiymətdən düşmüşdü deyə növbəti dəfə gözləmək qərarı verdik. Dekabrdan 2 ay da ötdü, 2016-cı ilin əvvəlində yenə də obyekti bizə təhvil vermədilər. Hər dəfə yeni bəhanə gətirirdilər. Sonda da dedilər ki, 2016-cı ilin may ayında obyektin pulunu qaytaracağıq. Biz həmin vaxtlarda Rafael Qarayevlə əlaqə saxlayıb ondan da obyektin bizə verilməsini istəyirdik. O da deyirdi ki, "obyektin pulunu ödəmisiz, gedin obyektinizi təmir edin, pulu ödəyə bilmirik".

2016-cı il iyunun 1-də "Evrostroy-S"ə getdik. Bizə Tofiq adlı mühəndisi qoşub İnqilab küçəsindəki baş ofisə göndərdilər. Biz Tofiqlə bərabər icraçı direktor Talehin yanında olduq. Ona sənədləri verdik. Baxdı, dedi ki, obyekt sizindir, haqlısız, amma obyekt başqa bir şəxsə satılıb. Talehə dedim ki, mənim iştirakım, razılığım olmadan, müqaviləm, maliyyə arayışım əlimdə ola-ola obyektin digər şəxsə satılması cinayətdir. Taleh bizimlə söhbətdən sonra kimlərləsə telefonla danışdı, dedi ki, sizin pulunuz qaytarılmalıdır. Siz zərər çəkməyəcəksiz. İcraçı direktor 1-2 günə bizə cavab veriləcəyini söylədi".

**T.Əlibalayev deyir ki, iyunun 1-dən sonra hər gün "Evrostroy-S"in Şərifzadə küçəsində inşa etdiyi binaya gediblər:** "Məqsədimiz bu idi ki, obyektimizin satıldığı şəxsi görüb ona vəziyyəti izah edək. Çünki şirkət rəsmiləri həmin şəxsi üzə çıxarmırdılar. Biz orada olarkən çoxlu insanlar ora gəlirdi. Onlar evlərini və ya pullarını tələb edirdilər. Elələri də vardı ki, 1 evi 2-3 nəfərə satmışdılar. İyunun 10-na qədər biz ora gedirdik. İcraçı direktor Taleh müəllim də bizə verdiyi sözü tutmamışdı. Deyirdi ki, "sizin məsələ mənlik deyil, mən şirkətdə müqəvvayam".

**T.Əlibalayevin sözlərinə görə, həmin günlərdə obyektin qarşısında olanda tanımadığı adamların təpkisi ilə qarşılaşıblar:** "İdmançı görkəmli həmin adamlar özlərini qoçu kimi aparırdılar. Onlara dedik ki, dövlət var, qanun var, əlimizdə haqlı olduğumuzu sübut edən sənəd var. Baxdılar, çevrilib getdilər. İyunun 10-da biz obyekti təmir etmək üçün ora 1 maşın material apardıq. Ceyhun adlı şəxs əvvəlcə dedi ki, obyektin başqa sahibi var. Səhərdən günortaya qədər bizi qapıda gözlətdilər. Sonra da qapıya içəridən qıfıl vurub bizi içəri buraxmaq istəmədilər. Sənədlərimizi göstərib təkid edəndən sonra qapını açdılar. 50-55 yaşlarında kişi yanında da 10 nəfərə yaxın şəxs bizə yaxınlaşıb kobud danışmaq istədilər. Həmin şəxs ətrafındakılara əmr elədi ki, bizi obyektdən qovsunlar. Onlara izah etdik ki, obyekt qanunla bizə məxsusdur və onların hərəkətləri qanunsuzdur. Əgər biz orada kiminləsə kobud danışsaydıq, bizə əl qaldıracaqdılar. Həmin vaxt Bəxtiyar Təhməzov sənədləri bizdən tələb etdi. Dedi ki, baxmaq istəyirəm. Verən kimi sənədləri cırmaq istədi. Əlindən almaq istədikdə, ətrafındakılar imkan vermədi. Sənədlər faylda idi deyə cıra bilmədi. Ara sakitləşəndən sonra ofisə gedib oturduq. Bəxtiyar dedi ki, sənədləriniz düzdür, amma Talehgil obyektinizi satıblar, ona görə də sizin pulunuz qayıtmalıdır. Ona dedik ki, 9 aydır ki, bizə pulun qaytarılacağı vədini verirlər, amma pulumuzu vermirlər. Bəxtiyar Təhməzov "siz pulu kimə vermisiz, gedin ondan da pulunuzu alın" söylədi. Ona "biz pulu "Evrostroy-S" şirkətinə vermişik, hansısa fərdə verməmişik" dedik. Ona izah etdik ki, biz pulu "Evrostroy-S"də konkret vəzifəli şəxsə veririksə və həmin şəxs şirkətin adından çıxış edib şirkətin ofisində pulumuzu alıb obyektə dair sənədləri verirsə, deməli, şirkət həmin şəxsə bu səlahiyyətləri verib. Biz min bir əziyyətlə qazandığımız pulumuzu verib, müqaviləni bağlayıb, sənədlərimizi alandan 2 dəqiqə sonra həmin şəxs öləcəksə, qaçacaqsa, kosmosa gedəcəksə, biz ona zamin dayana bilmərik. Biz pulu şirkətə ödəmişik. Ona görə də bizim obyektimizdə təmir işləri aparmağımıza mane olmamalarını xahiş etdik.

**T.Əlibalayev deyir ki, ofisdə olarkən B.Təhməzovun sözlərindən belə anlayıblar ki, Rafael Qarayevlə "Evrostroy-S" şirkətinin digər şərikləri arasında konflikt olub və ayrılıblar:** "Ona görə də bizə də problem yaratmaq istəyirlər. Halbuki bizim həmin konfliktə heç bir formada aidiyyətimiz yoxdur. Biz pulumuzu verib obyekt almışıq. Ofisdə olanda Bəxtiyar dedi ki, Rafael Qarayev bura gəlsin, obyektin sizə satılmasını desin, gedin, təmir edin. Xəbər göndərdilər, Rafael gəldi. O, ofisə girəndən sonra Bəxtiyara dedi ki, sən kimsən? Mən buranın şəriki olanda sən makler idin. Niyə bu adamları başına yığıb camaatı halal obyektinə girməyə, təmir etməyə imkan vermirsən? Bu kişilərin sənədləri əllərindədir, pul da şirkətin kassasında. Aralarında mübahisə yarandı, Bəxtiyar ətrafındakılara əmr etdi ki, armaturları götürün, vurun çıxarın bunları bayıra. Bəxtiyar şou yaradıb aləmi qarışdırmaqla bizim obyektin mübahisəli olması qənaətini formalaşdırmaq istəyirdi. Ona görə də hər ikisini sakitləşdirib xahiş etdim ki, əyləşin, burada mənim obyektimin üzərindən mübahisəyə ehtiyac yoxdur. Siz dava edib ortada mənim pulumun yeyilməsinə şərait yaratmayın. Bəxtiyar sakitləşmədi, bacısı oğlu Ceyhun əlində kərpiclə Rafaelə hücum etdi. Ceyhunu birtəhər sakitləşdirdik. Rafael də təsdiqlədi ki, bəli, bu adamlar pulu "Evrostroy-S" şirkətinə ödəyiblər, onlara da maliyyə kağızı verilib ki, obyekti alıblar, şirkətə 1 qəpik də olsun borcları yoxdur. Buna baxmayaraq, orada ağ saçlı biri vardı, adının Füzuli olduğunu sonradan mətbuatdan oxuduq. Bu söhbətdən sonra biz ofisdən çıxdıq. Obyektə tərəf getdik. Bir də baxdıq ki, Rafael, arxada da Bəxtiyar ofisdən çıxdı, Bəxtiyar dedi ki, armaturları götürün, qovun bunları buradan. Onun bu sözündən sonra 10-15 nəfər armaturları götürüb Rafaelə hücum etdilər. Onu vurub yerə yıxdılar. Füzuli Rafaeli sürüyə-sürüyə tikinti meydançasının həyətindən çıxardı. Yəni bizim Bəxtiyara, onun dəstəsinə qarşı hər hansı bir addımımız, onların bizə qarşı hər hansı bir addımları olmayıb. Biz Rafaelin döyülməsinə görə Bəxtiyara etiraz etdik, dedik ki, insanı pula, mala görə bu hala qoymazlar. Bu hadisədən sonra biz orada qaldıq. Yəni biz oradan getmədik. Təxminən yarım saat sonra əraziyə təcili yardım gəldi. Ardından isə Taleh də əraziyə gəldi. Başladı ki, belə obyekt almazlar. Yəni Bəxtiyarın ssenarisini davam etdirdi. Ona dedik ki, bizim davaya aidiyyətimiz yoxdur. Bəxtiyara da sual etdim ki, bizimlə dava eləmisən? O da Talehə dedi ki, mən bu adamlarla söhbət eləmişəm, söz vermişəm ki, həftənin 1-ci gününə qədər bu məsələ həll edilməlidir. Bundan sonra polis ora gəldi və onları izahat almaq üçün idarəyə apardı. Bizim adımızın bu məsələyə qarışması belə olub. Biz "Evrostroy-S" şirkətindən obyekt almışıq. Ona görə də zəhmət çəkib obyekti bizə təhvil versinlər. Kiminlə nə davaları varsa, özləri aydınlaşdırsınlar. Biz alıcıyıq. Məhkəmə deyilik ki, şəriklər arasında mübahisələrə aydınlıq gətirək".

❑ **E.HÜSEYNOV**

# Təhsil eksperti hərbi xidmətə möhləti təqdir edir, amma...

## Əjdər Ağayev: "Önəmli olan qərarın qəbulu yox, düzgün yerinə yetirilməsidir"



**Milli Məclis iyunun 15-də bakalavr, magistrlərə və doktorantlara hərbidən möhlət hüququ tanıyan qanun dəyişikliklərini təsdiqlədi. Dəyişikliklər prezident İlham Əliyev qanunu imzaladıqdan sonra qüvvəyə minəcək.**

Təhsil Şurasının sədri Əjdər Ağayev qəzetimizə açıqlamasında əsas qərarın qəbulu deyil, onun düzgün yerinə yetirilməli olduğunu bildirdi: "Magistratura və doktorantura səviyyəsində hərbi möhlətin ləğv edilməsi məsələsi gündəmə gələn dövrdən mən Milli Məclisin indi qəbul etdiyi qərarın təklifini vermişdim. Qeyd eləmişdim ki, bakalavr pilləsini oxuyan, qurtaran, yaşı çatmış insanlar hərbi xidmətə getsin. Amma magistraturaya, doktoranturaya daxil olan insanlar təhsilini başa vursunlar. Ondan sonra hərbi xidmətə gedə bilərlər. Çünki magistraturaya daxil olan insanların sayı azdır, çox deyil. Az say orduya heç nə gətirmir. Amma onların içərisində 3-5 nəfər elmə faydalı adamlar ola bilər ki, onların da təhsillərini davam etdirməsi daha faydalıdır. Onların içərisində, ola bilər ki, daha görkəmli şəxslər çıxsın və onların ixtira və kəşfləri orduya 100 adamın getməsindən daha artıq fayda versin. Mən Milli Məclisin bu qərarını razılıqla qarşılayıram ki, heç olmasa, qaldırılan ictimai fikrə dayaqlı yanaşdılar və o fikri qəbul etdilər".

**Ə. Ağayev bu qərarın faydasının çox olacağını dedi:** "Gərək elmə gələn gənclərin seçimi düzgün aparılsın ki, bundan sui-istifadə olunmasın. Kimsə öz uşağını gətirib magistraturaya, doktoranturaya daxil edim ki, əsgərliyə getməsin kimi yanaşmasa, həqiqi mənada elmə fayda verəcək istedadlılar, yüksək nailiyyət göstərənlər elmə gəlsə, yaxşı olar və bu qərar öz əhəmiyyətini göstərir. Əks təqdirdə, bu sui-istifadə məqsədi daşıyarsa, möhlət verməyin elm üçün əhəmiyyəti ola bilməz. Yəni məsələ təkcə qərarın qəbulu deyil, düzgün yerinə yetirilməsidir. Yəqin ki, bu təhsil, elm sayəsində tamlığı, davamlılığı elmi nailiyyətlərə doğru gedənlərin sayının artmasına kömək edəcək. Mən bu məsələyə elmi prinsiplərlə yanaşıram. Əgər kimsə bu qərardan istifadə edib oğlunu əsgərlikdən saxlamaq üçün elmi təşkilatlarda vəzifəyə gətirəcəksə, bu ziyanlıdır. Əgər həqiqi mənada elm sahəsində bacarığı olan insanlar daxil olacaqsa, təbii ki, faydalı olacaq. Burada da faydalılıq mövqeyi gözlənilməlidir. Mətbuat, ictimai fikir ayıq-sayıq olmalıdır ki, bu faydalı qərarın yerinə yetirilməsi necə təşkil olunur. Əgər biz olmasaq kimlərsə, bundan öz övladlarının xeyrinə istifadə edərsə, onda biz ayıq olmalı, deməliyik ki, biz bunu bu cür deməmişdik, qərar düzgün yerinə yetirilmir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016



# Keçmişi qurdalamağı bitirmək, sıfırdan başlamaq...

Xalid KAZIMLI

**Azərbaycan kimi ölkələrin nəsibi, taleyi belədir: bir tarixi nailiyyəti bir dəfə əldən verdilərmi, onu geri qaytarmaq, yenidən əldə etmək üçün 50-100 il çabalayırlar.**

1920-ci ildə əldən verdiyimiz müstəqil dövlətçiliyin bərpası 71 ildən sonra mümkün oldu. Bu yolda minlərlə vətən oğlu güllə qabağında, sürgünlərdə qurban getdi.

O zaman süqut edən respublikaya görə mübahisələr o dövləti qurmuş sonuncu insanlar yaşayana qədər davam etdi: "Dirəniş göstərsək, cümhuriyyəti qorumaq olardı", "kommunistlər xəyanət etməsəydi, Azərbaycanın müstəqilliyi əldən getməzdi", "Böyük dövlətlər ölkəmizi Rusiyaya güzəştə getməsəydilər..." və sair və ilaxır.

Eyni durum 4-24 iyun 1993-cü il hadisələrinə münasibətdə də yaranıb. Üstündən 23 il keçib, mübahisə bitmir. Hamı bir-birini qınayır, ittiham edir.

22 ildən çoxdur ki, hər ilin iyun ayı bu sayaq mübahisələrlə keçir. Təkrarlanan fikirlər, hər dəfə "iyun qiyamının daha bir sirri açıldı" deyə təqdim olunan, ancaq çoxlarının çoxdan bildiyi xırda detallardan başqa bir şey olmayan söhbətlər artıq ictimaiyyəti də, yeni nəsil siyasi qüvvələri də, hətta mübahisə edənlərin özlərini də bezdirib.

Biz hamılıqla dərin bir girdabın dibində olan, gah fiziki güc, gah intellekt, gah da fövqəl qüvvələrin hesabına o girdabdan çıxmaq istəyən və bunu bacarmayan, nəticədə dibdə qalaraq bir-birilə dalaşan çarəsiz adamlara dönmüşük.

1995-ci və ya 1998-ci ildə müxalifət həmin dərin çuxurdan çıxsaydı, demokratik seçki keçirib, hakimiyyəti dəyişə bilsəydi, bu söhbətlər çoxdan bitmiş, kəsərini, qızğınlığını itirmiş olardı.

Ancaq bu, nə o illərdə, nə də ondan sonrakı seçkilərdə baş tutmadı, ona görə də söhbət vaxtaşırı dönüb-dolaşıb problemin qaynağı olan günlərə gəlir.

Əslində isə problemin qaynağı heç də 4-24 iyun arasındakı o müdhiş günlərdə kimin nə cür mövqe tutmasında deyil. Hər şeyin başqa cür olması üçün əlverişli mühit, tormozlayıcı mexanizmlər, qoruyucu çənbərlər, çanaqlar yox idi.

Başqa sözlə, prezident Elçibəy qiyamçılara qarşı sərt olsaydı da, Etibar Məmmədov qiyamçılara dəstək verməsəydi də, Heydər Əliyev qiyamçılardan öz xeyrinə yararlanmasaydı da, qiyamçılar başlarından böyük iddialara düşməsəydilər də, 1993-cü ildə demokratik hakimiyyəti qoruyub saxlamaq mümkün olmayacaqdı. Yenə kimlərsə başqaları ortaya çıxıb düzəni pozacaqdılar.

Oturuşmuş dövlətlərin, demokratik rejimə malik ölkələrin əsas üstünlüyü odur ki, dövlətçilik hansısa liderin qətiyyətlilik dərəcəsindən, başqasının vicdanlılığından, bir ayrısının hakimiyyət hərisliyindən, bu birisinin insaf-mürvətindən asılı deyil. Ortada işlək mexanizmlər, effektiv institutlar, aydın hakimiyyət bölgüsü var və bir adam (bir qrup) istəsə də dövlətin taleyini özü bildiyi istiqamətə döndərə bilməz.

1993-cü ildə bizdə nəinki o cür mexanizmlər yox idi, hətta o mexanizmləri zamanla yaratmaq üçün də mühit, iradə, təşəbbüs, lazımi bilgi, təcrübə yox idi.

Başqa sözlə, bütün bu hadisələr ona görə baş verdi ki, elə də olmalıydı. Cəmiyyət demokratiyaya hazır olmadığı kimi, dövlət də demokratik prinsiplərlə idarə olunası halda deyildi.

Əgər cəmiyyət güclü, demokratiyaya hazır olsaydı, 1993-cü ilin bu günlərində itirdiyi o tarixi nailiyyəti sonrakı illərdə mütləq bərpa edərdi. Ancaq edə bilmədi və ildən-ilə müqavimət gücü azaldı, potensialı zəiflədi, yıprandı, deqradasiyaya, mənəvi aşınmaya məruz qaldı və biz bu günlərə gəlib çıxdıq.

1993-cü ildə hər şeyin başqa cür olması, bu günümüz baxımdan düzgün istiqamətə getməsi üçün əlində səlahiyyət olanlar çox radikal, inqilabi addımlar atmalıydılar, milli təsanüd xəttindən imtina etməli idilər, öz üzərlərinə böyük məsuliyyətlər götürməli idilər. Bu halda bəlkə də onlar özlərini fəda edəcəkdilər, bəlkə də tarixdə qara damğa ilə qalacaqdılar, ola bilərdi ki, heç vaxt xalqın gözündə bəraət də qazanmayacaqdılar.

Bütün bunları biz indi bilirik, bu günün prizmasından baxıb anlayırıq. O vaxt müdrik qərarlar verməK çətin idi.

Ona görə də arzu edək ki, heç olmasa 4-24 iyun qiyamının 24-cü ildönümündə bu söhbətlərin üstünə elə bir daş qoyulsun ki, daha onu açıb-bükən olmasın. Keçmişlə bu qədər oynamaq, qurdalanmaq heç bir halda uğur gətirə bilməz. İrəliyə baxmaq, sıfırdan başlamaq lazımdır. Və bunu "şanlı keçmiş"i olmayanlar etməlidir.



# Çəkişən sahibkarların qarşılıqlı ittihamları artır

## "Evrostroy-S" şirkəti Abbas Həsənliyə cavab verdi: "O, 240.000 manat həcmində işləri yerinə yetirməyərək həmin məbləğdə pulu mənimsəyib"

**"Yeni Müsavat"ın son sayında Bakı sakini Abbas Rzaqulu oğlu Həsənlinin ölkə rəhbərliyinə ünvanladığı məktub dərc olunmuşdu. Məktub müəllifi "Evrostroy-S" MMC-nin prezidenti Seymur Nizam oğlu İsayevdən şikayətçi olduğunu bildirirdi. A.Həsənli yazır ki, Akif Çovdarovun havadarlıq etdiyi "Evrostroy-S" MMC-nin prezidenti Seymur İsayev ona qarşı cinayət əməllərinə yol verib. Şikayətçi bu işə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində hüquqi qiymət verilməsini xahiş etdiyini bildirib.**

O, şikayətinə Nərimanov Rayon Prokurorluğunda baxılmasına etiraz edir. A.Həsənlinin yazdıqlarından belə anlaşılır ki, "Evrostroy-S" MMC-də müxtəlif təmir-tikinti işlərini podrata götürüb və başa çatdırıb. Amma gördüyü işlərə görə pulunu bu günə qədər müxtəlif bəhanələrlə vermirlər.

**Podratçı prezidentə ünvanladığı məktubda yazır:** "Hörmətli Prezident! 20 may 2012-ci ildə "Evrostroy-S" MMC-nin təsisçisi Seymur Nizam oğlu İsayevlə qarşılıqlı olaraq razılığa gəlməklə Bakı şəhəri, Yasamal rayonu, Ə.Əhmədov küçəsində inşa edilən 3 bloklu 16 mərtəbəli yaşayış binasının, Yasamal rayonu, Şərifzadə küçəsi 12 ünvanında inşa edilən 5 bloklu, 16 mərtəbəli yaşayış binasının və Nizami rayonu, Bəhruz Nuriyev 2389-cu məhəllədə inşa edilən 2 girişli 16 mərtəbəli yaşayış binasının ümumi hörgü və mala işlərini podratçı olaraq həyata keçirmişəm.

İşlər həyata keçirildəndən sonra isə mənə əmək və materialların qarşılığında "Evrostroy-S" şirkətinin inşa etdiyi binalarda bir neçə mənzilin sənədləri təqdim edilib. Lakin sonradan bilmişəm ki, mənə verilən mənzillərin sənədləri saxtadır. Mənə qarşı bu cinayəti Seymur İsayevin tapşırığı ilə mühasib Tural Eyvazxan oğlu Hüseynov, direktor Rəşad Cəmil oğlu Abbasov, xəzinədar Elnarə Əli qızı Bağırova, Famil Məhərrəm oğlu Kazımov, Elmir Elxan oğlu Mirzəyev, Zaur Rafael oğlu İmamverdiyev törədiblər. Bu adamlar rəsmi sənədləri saxtalaşdırmaqla külli miqdarda əmlakımı ələ keçiriblər".

**Şikayətçi yazıb ki, Yasamal rayonu, Şərifzadə 12 ünvanında inşa edilən 5 bloklu, 16 mərtəbəli yaşayış binasının hər blokunu 275 min manata təmir edib:** "5 blokun təmirinə görə mənə 1 milyon 375 min manat ödənməli idi. Bunun əvəzində 210 min manat ödədilər. Bu gün də mənə 1 milyon 165 min manat ödənməli olduqları halda, bir manat da ödəmək istəmirlər. Nizami rayonu, Bəhruz Nuriyev küçəsi, 2389-cu məhəllədə 2 girişli 16 mərtəbəli yaşayış binasında gördüyüm işlərə görə də mənə pul ödəməyiblər".

**A.Həsənli yazır ki, baş prokurora, Daxili İşlər Nazirliyinə, Bakı şəhər prokuroruna, Bakı Şəhər Baş Polis İdarəsinə və Nərimanov Rayon Prokurorluğuna şikayət ərizələri ilə müraciət edib. O bildirir ki, Nərimanov prokuroru Vüqar Əliyev işi obyektiv araşdırmayıb, hansısa maraqlarından işi gizlətməyə çalışır:** "Ona görə də mənim şikayətlərimin Nərimanov Prokurorluğundan alınaraq Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanmasını xahiş edirəm".

**Bu şikayət qəzetdə dərc olunduqdan sonra qarşı tərəf də redaksiyaya cavab məktubu yollayıb. Həmin məktubda bildirilir:** "Hörmətli redaksiya!

15 iyun 2016-cı il tarixli sayınızda "Podratçıdan "Evrostroy-S" şirkətinə şok ittihamlar" sərlövhəli məqalədə göstərilənlər yalan və böhtandır.

Belə ki, məqalədə adı göstərilən Abbas Həsənli ilə "Evrostroy-S" MMC arasında şirkət tərəfindən inşa edilən binalarda mala və hörgü işlərinin görülməsinə dair podrat müqavilələri imzalanıb. Həmin müqavilələrə əsasən Abbas Həsənliyə sifariş verilən işlərin dəyəri 1.375.000 *(bir milyon üç yüz yetmiş beş min)* manat təşkil edib. Qeyd edilən məbləğ avans kimi hissə-hissə olmaqla tam şəkildə nağd pul və əmlak şəklində qabaqcadan Abbas Həsənliyə şəxsən imza etdirilməklə onun özünə verilmişdir. Bu barədə bütün sənədlər məhkəməyə və digər hüquq-mühafizə orqanlarına təqdim edilib.

Lakin Abbas Həsənli müqavilə üzrə öhdəsinə götürdüyü və pulunu qabaqcadan aldığı işləri tamamlamayıb.

Sifarişçi "Evrostroy-S" MMC tərəfindən Abbas Həsənlinin yerinə yetirdiyi işlərin həcmi yoxlanılarkən məlum olmuşdur ki, o, görməli olduğu işlərin dəyərini qabaqcadan almasına baxmayaraq 240.039 *(iki yüz qırx min otuz doqquz)* manat həcmində işləri yerinə yetirməyərək həmin məbləğdə pulu mənimsəyib.

Abbas Həsənliyə qeyd edilən işlərin görülərək tamamlanması bildirilsə də o, sifarişçidən aldığı pulu "şəxsi problemlərinə" xərclədiyini və buna görə də işi tamamlaya bilməyəcəyini deyib.

Bundan sonra "Evrostroy-S" MMC iddia ərizəsi ilə Bakı şəhəri, Xətai Rayon Məhkəməsinə müraciət edərək podratçı Həsənli Abbas Rzaqulu oğlundan öhdəliyin icrasına görə 240.039 (iki yüz qırx min otuz doqquz) manat, öhdəliyin pozulması nəticəsində manatın devalvasiyası ilə əlaqədar vurulmuş ziyan kimi 100.000 (yüz min) manat, işgüzar nüfuzun zədələnməsi ilə əlaqədar olaraq vurulmuş mənəvi ziyana görə 200.000 (iki yüz min) manat və ödənilmiş dövlət rüsumuna görə 30 (otuz) manat olmaqla, cəmi 540.069 (beş yüz qırx min altmış doqquz) manatın tutulmasını tələb edib.

Həsənli Abbasın şəxsi evlərdə apardığını göstərdiyi təmir işləri ilə əlaqədar olaraq onu deyə bilərik ki, ona icrası tapşırılmış bütün işlərin dəyəri ona tam şəkildə ödənilib.

Abbas Həsənli məqalənin əvvəlində onunla müqavilə imzalanaraq işləri gördüyünü, sonunda isə heç bir müqavilənin olmadığını qeyd edir. "Yalançının yaddaşı olmaz" atalar məsəli burada yerinə düşür.

Həmçinin A.Həsənlinin müraciəti əsasında müxtəlif hüquq-mühafizə orqanlarında məqalədə göstərdiyi hallarla bağlı araşdırma aparılaraq heç biri öz təsdiqini tapmadığından rədd edilib.

"Evrostroy-S" MMC-dən alaraq mənimsədiyi pulları hansı çirkli işlərə sərf etdiyini A.Həsənli və onun yaxın ətrafı yaxşı bilir. Biz, sadəcə, etik qaydaları gözləyərək bu barədə danışmaq istəmirik. Amma zərurət olarsa, bu halları faktlarla açıqlaya bilərik.

Bundan başqa, bildirmək istəyirik ki, "Evrostroy-S" MMC-nin və onun rəhbərliyinin MTN-in keçmiş əməkdaşları Akif Çovdarov və onun tabeliyində olan şəxslərlə heç bir əlaqəsi yoxdur və heç bir zaman da olmayıb.

Bununla bağlı qəzetinizdə təkzib məktubumuz da dərc olunub.

Eyni zamanda bildirmək istəyirik ki, son zamanlar "Evrostroy-S" MMC-yə qarşı mətbuatda təşkil edilən çirkin kampaniyalar, həmçinin 10 iyun 2016-cı il tarixdə şirkətin Şərifzadə küçəsi 12 saylı ünvanında yerləşən ofisinə Rafael Qarayev, Azad Lətifov və digər şəxslər tərəfindən cinayətkar dəstə şəklində basqın edilərək əməkdaşlarımızın ölümcül döyülərək obyektin tələb edilməsi sifarişlidir, şirkətin və onun rəhbərlərinin nüfuzuna xələl gətirmək, qara yaxmaq, həmçinin əmlakını zorla ələ keçirilməsi məqsədi daşıyır. Görünür, şirkətin günü-gündən artan nüfuzu, bazarda öz yerini möhkəmləndirməsi kimləri isə narahat edir!

Halbuki əvvəllər də qeyd etdiyimiz kimi, "Evrostroy-S" MMC və onunla əlaqəli şirkətlər öz işlərini yalnız qanunlara uyğun qurur, öz fəaliyyətində Azərbaycan Respublikasının və Beynəlxalq Qanunvericiliyin müddəalarını rəhbər tutur.

Biz söz və mətbuat azadlığına, Azərbaycan jurnalistikasına hörmətlə yanaşır, lakin qeyd etmək istəyirik ki, bu cür yoxlanılmamış, əsassız və hazırda məhkəmə araşdırması predmeti olan bir mübahisənin mətbuat səhifələrində getməsini qınayırıq, bunu məhkəməyə və digər hüquq-mühafizə orqanlarına təzyiq kimi qiymətləndiririk.

Hazırkı təkzib məktubumuzu dərc etməyinizi və bundan sonra "Evrostroy-S" MMC və onunla bağlı olan şəxslər haqqında yazılar dərc etməzdən əvvəl bizim də mövqeyimizi öyrənməyinizi xahiş edirik".

❑ Musavat.com

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016

# “O videoların sayı 2800-dən çoxdur”

## Mehman Əliyev: “Bu dəfə hədəf iqtidarın öz ətrafı olacaq”

**MTN-in keçmiş zabiti, “Şərq Qərb” Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclunun “Eldar Mahmudovun rəhbərlik etdiyi quldur dəstəsi təkcə sahibkarları soyub-talamayıb, eyni zamanda ölkənin tanınmış şəxsləri barədə şantaj xarakterli videomateriallar toplayıb” açıqlaması cəmiyyətdə ciddi müzakirə obyektidir. Ə.Oruclu bu videokasetlərin sayının 2800 olduğunu və sözügedən rəqəmin ona mötəbər mənbələrdən verildiyini deyib.**

*“Turan” informasiya agentliyinin rəhbəri Mehman Əliyev “Yeni Müsavat”a müsahibəsində bu mövzu ilə bağlı geniş danışıb.*

***– Mehman bəy, bu məlumatın açıqlanması, gizli kasetlərin sayının 2800 olması ilə bağlı deyilənlər cəmiyyətdə niyə belə səs-küy doğurdu. Ümumiyyətlə, bu, cəmiyyəti narahat etməlidirmi?***

- Kimlər ki, o işlə məşğuldurlar, onlar narahat olsunlar.

***– Necə yəni?***

- Yəni kim ki, haqqında kompromatlar olmasından şübhələnir, onlar narahat olmalıdır. Şəxsən mənim üçün bu, olduqca adi bir informasiyadır və məni narahat etmir. Çünki hər hansı gizli, sonradan narahat olacağım işlə məşğul deyiləm. Digər tərəfdən, prinsipcə həmişə nümayiş etdiriblər ki, MTN bununla məşğuldur. Bir sıra jurnalistlərin şəxsi həyatları ilə bağlı videoların üzə çıxarılması, bunların hətta televiziyada göstərilməsi daha öncə baş verib. Əvvəl bu cür kompromatları müxalifətə qarşı yığırdılarsa, indi bir-birinə qarşı yığırlar. Bu proses əsasən 2003-2004-cü ildən başlayıb.



**“Şəxsən mən özüm də belə bir cəhdlə qarşılaşmışam”**

***– Bəs 2800 rəqəmi sizə inandırıcı gəlirmi? Mümkündür, sizcə?***

- Məncə, əllərində olan videoların sayı 2800-dən də çoxdur. Burda təkcə yüksək vəzifəli məmurlardan, fəallardan söhbət getmir ki. Adi iş adamları da hədəf ola bilər. Bu kompromatları hər bir şəxsə qarşı toplaya bilərlər. Və heç kim istəməz ki, bu, yayılsın. Pul alıb, təzyiq etmək üçün yığdıqları da çox olub. İnsanların kütləvi izlənməsi gedir. Bunun xüsusi qolları, aparatları var. Şəxsi avadanlıqlar quraşdırılıb. Çalışırlar ki, hamını nəzarət altına götürsün. Siyasi mənsubiyyətindən asılı olmayaraq bunu edirlər.

***– Necə düşünürsüz, bu informasiyanın indi üzə çıxması nədən xəbər verir?***

- Bu informasiyanın sızdırılması o deməkdir ki, Eldar Mahmudov özünü sığortalayır. Ona görə də hamı maraqlı olmamalıdır ki, bu məsələ dərinləşsin, harasa getsin. Əsas məsələ odur ki, bu, faktdır, belə videolar var.

***– Bəs üzə çıxarıla bilərmi? Yoxsa blef xarakteri daşıyır?***

- Bu, baş verməyəcək bir hadisə deyil. Əgər mövcuddursa, çıxa bilər. Baxır şəraitə. Buna nə təkan verə bilər? Yüz faiz bilirəm ki, belə videolar çəkilib. Şəxsən mənim özüm belə bir cəhdlə qarşılaşmışam. Bir dəfə bir kafedə yanıma polislər gəldilər. Dedilər ki, biz sizi tanıyırıq, gəlin dostluq edək, söhbət edək. Kafenin içindəki yeri göstərib dedilər ki, “burda kabinalarımız da var. Gəlin, istirahət edin. İçəridə duş otağı, hər cür şərait var”. Mən bilirəm ki, bunlar nədir. Əgər elə yerlər varsa, orda izləmə aparatları da quraşdırılıb. Açığı, mən bu işlərlə məşğul deyiləm, ona görə də nə gələn təkliflərə əhəmiyyət verirəm, nə də bu cür video söhbətləri yayılanda narahat oluram.

***– Hesab edək ki, bu materialları bir-bir yaymağa başladılar. Sizcə, cəmiyyətdə nə baş verə bilər?***

- Əgər videosu yayılacaq şəxslər vəzifəlilərdisə, onlar istefaya gedə bilərlər. Amma bunun özü də bir qədər müəmmalıdır, qəti şəkildə demək olmur. Çünki daha öncə Samir Şərifovla bağlı informasiya getdi ki, Amerikanın agentidir. Amma nəinki vəzifəsindən çıxarıldı, heç araşdırma da aparılmadı. O, hələ də yerində oturub. Xüsusi xidmət orqanları onu niyə yoxlamadılar? Halbuki onların bu barədə məlumatı var idi. Amma nə təkzib var, nə də başqa bir şey.

***– Belə başa düşdüm ki, siz yayıla biləcək videoların hakimiyyətdəki məmurlarla bağlı olacağına daha çox ehtimal verirsiz. Hakimiyyətdaxili ziddiyyətlərin nəticəsi olaraq bu materialların yayılması daha çox mümkündür, sizcə?***

- Ümumiyyətlə, son illər ölkədə müxalifət-iqtidar problemi yoxdur. Sonuncu, daha doğrusu, 2015-ci ildəki həbsləri götürəndə aydın olur ki, daha çox iqtidar nümayəndələri, özlərinə yaxın insanlar, iş adamları hədəfdədir. Həmin vaxtdan iqtidardaxili problemlər başlanıb. MTN, Rabitə Nazirliyi, Beynəlxalq Bankda baş verənlər də sübut idi. Amma bunların davamı da ola bilər. İndi ölkədə daha çox iqtidardaxili problemlər var. Cəmiyyətlə iqtidar arasında problem özünü daha çox göstərir Varlı da, kasıb da itirib. Hamı narazıdır. İqtisadi durum göstərir ki, ölkədə hər şey pisliyə doğru gedir. Qarşıda nələr ola bilər? Kompromatlar ikinci dərəcəli problemdir. Əsas məsələ iqtisadi böhran və ondan çıxış yollarının tapılmasıdır. Bu isə iqtidarın problemidir.

❑ **Sevinc TELMANQIZI**

# Amnistiya aktının icrasına başlanıldı

## 350 məhbus azadlıqda; Hacı Məmmədovun arvadı Nailə Quliyeva da həbsdən buraxıldı



**İyunun 15-dən etibarən ötən ay Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, deputat Mehriban Əliyevanın təşəbbüsü ilə irəli sürülən və qəbul edilən amnistiya aktının icrasına başlanılıb. İlk gün 350 məhbus azadlığına qovuşub.**

Cəzaçəkmə müəssisələrində keçirilən məhbusların azad edilməsi üçün təşkil olunan tədbirlərdə ombudsman Elmira Süleymanova, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin idarə rəisi Mirsaleh Seyidov, “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev iştirak edib.

1 saylı Bakı İstintaq Təcridxanasından altı məhbus azadlığa buraxılıb. Amnistiya aktına düşən digər məhbusların dörd ay ərzində müəssisədən azad olunması nəzərdə tutulur. Şüvəlandakı 3 saylı müəssisədən isə 11 məhbus azad edilib. Amnistiyanın şamil olunduğu digər məhbuslar isə qarşıdakı 4 ayda məhkum həyatına son qoyacaqlar.

Gün ərzində 1 saylı cəzaçəkmə müəssisəsindən 13, qadınların olduğu 4 saylı cəzaçəkmə müəssisəsindən 3, 15 saylı cəzaçəkmə müəssisəsindən 10, 16 saylı cəzaçəkmə müəssisəsindən isə 5 məhkum azadlığa buraxılıb.

Qeyd edək ki, amnistiyanın icrası bölgələrdə də həyata keçirilib. APA-nın Şəki-Zaqatala bürosunun məlumatına görə, Şəki Penitensiar Müəssisəsindən 5 məhbus cəzalarının qalan hissələrindən azad olunub.

Banda başçısı, ömürlük məhkum Hacı Məmmədovun həyat yoldaşı Nailə Quliyeva da azadlığa buraxılıb. Gununsesi.infoxəbər verir ki, Nailə Quliyeva məhkumların saxlandığı 4 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılıb.

Uzun illər Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanasında saxlanılan Daxili İşlər Nazirliyinin (DİN) sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədovun həyat yoldaşı Nailə Quliyeva amnistiya aktına düşənlər sırasında olduğu üçün azad edilib.

Qeyd edək ki, Nailə Quliyeva 2005-ci ilin martında MTN-in “Qara Kəmər” əməliyyatı zamanı həbs edilən DİN-in sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədovun həyat yoldaşıdır.

Azadlığa qovuşan bəzi məhbuslar mətbuata keçirdikləri hissləri anladıblar. Onların hər biri amnistiya təklifini irəli sürdüyünə görə M.Əliyevaya təşəkkür ediblər.

**1 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılan, 14 il həbs cəzası alan Xəqani Ağayev bunları deyib:** “Amnistiya olacağına inanmırdım. Dünən xəbər verdilər ki, cəzamın çəkilməmiş hissəsindən azad olunmuşam. Çox sevincliyəm. Bu sevinci mənə və ailəmə yaşadan millət vəkili, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm. Mehriban xanımın humanist bir xanım olduğunu bilirik. Arzu edirəm ki, bu cür aktlar tez-tez qəbul olunsun və digər məhbuslar da sevinsinlər. Allah daim Mehriban Əliyevanı və onun ailəsini sevindirsin”.

**15 saylı cəzaçəkmə müəssisəsindən azad olunan Nizami Əliyev birinci xanımın təşəbbüsünün ailəsinə hədiyyə olduğunu bildirib:** “Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın bu təşəbbüsü mənim ailəmə əsl hədiyyə oldu. Məndən çox ailəm əziyyət çəkirdi. Mehriban xanım Əliyeva ailəmə böyük sevinc bəxş etdi. Mən cənab prezident İlham Əliyevə və onun xanımı Mehriban Əliyevaya xüsusi təşəkkürümü bildirirəm”.

Ombudsman E.Süleymanova sonuncu 4 amnistiya aktının millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul olunduğunu xatırladaraq, Azərbaycanda 11 amnistiya aktının, 61 əfv sərəncamının imzalandığını bildirib, bunların böyük rəqəm olduğunu qeyd edib.

**Amnistiya aktlarının icrasında iştirak edən Əliməmməd Nuriyev proses bu şəkildə davam edərsə, işlərin 2 aya yekunlaşacağını bildirdi:** “İyunun 15-də müxtəlif cəzaçəkmə müəssisələrindən gün ərzində 350-yə yaxın məhbus azad olundu. Mən qadın məhbusların saxlanıldığı 4 saylı cəzaçəkmə müəssisəsində, Bakı İstintaq Təcridxanasında və Şüvəlanda yerləşən 3 saylı həbsxanada oldum. Olduğum həbsxanalardan 28 məhbus azad edildi. Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən xüsusi tədbirlər hazırlanıb ki, burada məqsəd amnistiya aktının qısa müddətdə həyata keçirilməsidir. Ümid edirəm ki, 4 ay nəzərdə tutulmasına baxmayaraq, 2 ay ərzində amnistiyanın icrası başa çatacaq. Amnistiyada təkcə azadlığa çıxan şəxslər nəzərdə tutulmur, digər məhbuslar da var ki, onlara da şamil olunur. Sonuncu amnistiya aktı ilə müstəqillik illəri ərzində Azərbaycanda 11 amnistiya aktı verilib ki, indiyə qədər 107 min məhbus azad edilib. Ölkəmizdə cəza siyasəti ilə bağlı müsbət addımlar atılır. Bundan əlavə, xüsusi komissiya yaradılıb ki, son illərdə 4 min məhbusun cəzası ya dəyişdirilib, ya da cəzalarından şərti olaraq azad ediliblər. Bunlar ölkənin təməl prinsipləri yönündə atılan addımlar kimi qəbul edilməlidir. Dövlət təkcə cəzalandırmamalıdır. Həm də mərhəmət nümayiş etdirməlidir. Artıq ölkəmizdə cəza siyasətinə qarşı yeni tendensiyaların şahidi oluruq. Bu prosesin davamlı olacağına inanıram”.

**Hüquqşünas məhbusların qərara olan münasibətlərinə də toxundu:** “Pozitiv münasibətlərin şahidi olduq. Onların gözlərində ümidlər gördük. Əsas sevindirici hal o idi ki, məhbusların valideynləri də tədbirə dəvət olunmuşdular. Amnistiya digər məhbuslarda da yeni ümidlər yaradır. Onların islah prosesinə cəlb olunmalarına ciddi kömək olur. Çalışacaqlar ki, mərhəmətdən onlara da pay düşsün. Ona görə də davranışlarına fikir verəcəklər. Eyni zamanda əmək vərdişlərinə yiyələnəcəklər. Gələcəkdə cinayət halları azalacaq. Düşünürəm ki, dövlət tərəfindən bu istiqamətdə atılan addımlar gələcəkdə daha da artırılacaq”.

Qeyd edək ki, amnistiya aktı 10 min məhbusa şamil olunub. Onlardan 3500-ü azadlığa çıxacaq.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya Günü münasibətilə həmkarı Vladimir Putinə yazdığı təbrik mesajı dünya gündəmini zəbt edib. Əksəriyyət Ərdoğanın bu məktubunu Rusiya ilə aylardır davam edən gərgin münasibətlərin düzəlməsi yönündə irəliyə doğru atılmış növbəti müsbət addım kimi dəyərləndirir.**

# Ərdoğan Putinə məktub yazdı - top Rusiya tərəfdə...

## Türkiyə prezidenti və baş nazirinin rusiyalı həmkarlarına yazdıqları məktublara münasibət müxtəlifdir; Rusiya ilə Türkiyəni barışığa sürükləyən ortaq cəhətlər

Maraqlıdır ki, Türkiyə prezidenti ilə yanaşı qardaş ölkənin baş naziri Binəli Yıldırım da rusiyalı həmkarı Dmitri Medvedyevə eyni məzmunlu təbrik məktubu ünvanlayıb. Hər iki məktubda Rusiya ilə əlaqələrin əvvəlki kimi bərpa olunmasının vacibliyi vurğulanır.

**Ərdoğanın məktubunda bu sözlər yer alır:** "Çox hörmətli cənab Prezident! Türkiyə xalqı adından sizin simanızda bütün rusiyalıları Rusiya Günü münasibətilə təbrik edirəm. Eləcə də Rusiya-Türkiyə münasibətlərinin layiqli səviyyəyə çatmasını arzulayıram".

Türkiyənin dövlət başçısı və ikinci şəxsinin rusiyalı həmkarlarına göndərdikləri məktublar heç də birmənalı qarşılanmır. Çoxları bunu Türkiyənin Rusiya qarşısında "sınması" kimi qəbul edir. Amma önəmli günlə bağlı dövlət başçılarının bir-birilərinə bu tipli məktublar göndərdiklərini düşünərək, Türkiyə hökumətinin bu addımlarını normal qarşılayanlar da az deyil. Eyni zamanda Rusiya-Türkiyə münasibətlərinin vacibliyini vurğulayaraq, türk hökumətinin barışmaq yönündəki siyasətini alqışlayanlar var.

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, Ərdoğan və Yıldırım planlı hərəkət ediblər:** "Bunlar planlı siyasətin tərkib hissəsidir. Binəli Yıldırım baş nazir seçildikdən sonra hər şeyi ağ səhifədən başlamaq istəyir. Əgər təyyarə vurularkən Türkiyədə baş nazir Əhməd Davudoğlu idisə, necə ki, təyyarənin onun tapşırığı ilə vurulduğunu demişdi, amma Yıldırım yeni baş nazirdir və Rusiya ilə münasibətləri normallaşdırmaq istəyir. Bu məktublarda Türkiyə tərəfindən barışıq yolunda bir jestdir. İndi top Rusiyanın meydanındadır. Artıq Putinin iki seçimi var. Ya əvvəlki informasiya savaşını davam etdirəcək, ya da geri addım atmaq haqqında düşünəcək. Türk rəsmilərinin maraqlı bir təklifləri var idi ki, ikitərəfli komissiya quraq, məsələ birgə araşdırılsın. Əgər bu təklif qəbul olunsa, münasibətlər normallaşa bilər. İndi Ərdoğan növbəti jestini etdi. Qarşılıqlı jesti Putin 29 oktyabrda Türkiyənin Cümhuriyyət Günündə atmalıdır. Əgər təbrik məktubu göndərəcəksə, demək, o da münasibətlərin düzəlməsinin tərəfdarıdır. Əksini edəcəksə, münasibətlərin normallaşmasına xeyir verməyəcək. Hər iki dövləti yaxınlaşdıran önəmli məqam var. Türkiyə və Rusiyanın Avropa İttifaqı və Amerika ilə



münasibətləri normal deyil. İttifaq yenə də Türkiyəni qapıda qoyub. Amerikanın da Suriyada kürdlərə dəstək verməsi Türkiyəni narazı salıb. Bu amillər Türkiyə-Rusiya yaxınlaşmasını sürətləndirə bilər. Top hazırda Putinin meydanındadır, cavab növbəsi ondadır".

**Politoloq Türkiyənin barışıq yolunda atdığı son addımlara münasibətin birmənalı olmamasına da toxundu:** "Türkiyə jest edir, barışıq əlini uzadır. Doğrudur, Türkiyə Rusiya ilə münasibətlərin düzəlməsini, rus turistlərin yenidən Antalya və digər istirahət zonalarına gəlməsini istəyir. Amma bunlar türk iqtisadiyyatına o qədər də sarsıdıcı zərbə endirməyib. Sadəcə, böyük qonşusu ilə münasibətlərin əvvəlki axarına qayıtmasına çalışır. Bu, yalvarmaq deyil. Azərbaycan ictimaiyyəti arasında Türkiyənin addımına qarşı çıxanların çoxluq təşkil etdiyini düşünmürəm. Cəmiyyətimizdə hər iki dövlətin barışmasını istəyənlər az deyil. Çünki Rusiya-Türkiyə gərginliyi Ermənistanın maraqlarına xidmət edir. Rusiya tərəfi açıq şəkildə türklərə qarşı informasiya savaşı aparır ki, bu düzgün deyil. Savaş davam edəcəksə, demək, Putin barışığa hazır deyil. Türkiyənin atacağı bir addım da ola bilər. Rus pilotun öldürülməsində Türkiyə tərəfi səhvini etiraf edə bilər. Pilot sağ ələ keçirilib, qarşı tərəfə təhvil verilsəydi, heç bu qədər gərginlik olmazdı. Beynəlxalq hüquq normaları da bunu tələb edir".

**E.Şahinoğlu oktyabra qədər Türkiyə-Rusiya münasibətlərinin düzələ biləcəyi anonsunu da verdi:** "Ərdoğanın jestinə cavab olaraq, yaxşı olardı ki, Putin ortaq komissiyanın yaradılmasına razılıq versin. Bu olarsa, oktyabrın 29-nu gözləmək lazım gəlməyəcək. Onsuz da Putin təbrik məktubu göndərəcək. Rusiyanın əlinə də fürsət düşüb. Yıldırım yeni baş nazirdir, artıq təyyarənin vurulması məsələsi arxada qalıb. Təyyarə də boşuna vurulmayıb. Rusiya kürdlər məsələsində geri çəkilərsə, yəni onlara dəstək, silah verməleri barədə faktlar var, o zaman Türkiyə də Ukrayna məsələsinə həssas yanaşar. Rusiya sərhəd baxımından kürd muxtariyyətinin yaradılmasını istəmir, Türkiyə də Bəşər Əsədə düşmən gözü ilə baxsa da, Suriyada kürd dövlətinin yaranmasını istəmir. Bu məsələlərdə hər iki dövlət ortaq məxrəcə gələ bilər".

❑ Cavanşir ABBASLI

# Almaniyaya qarşı "soyqırım" etirazlarının səngiməsinin səbəbi

**İyunun 2-də Almaniya Bundestaqında qondarma "erməni soyqırımı" haqqında qətnamənin qəbulu təkcə Türkiyəni yox, Azərbaycanı da ciddi narahat etdi. İctimaiyyət daxilində Almaniya qınaq obyektinə tuş gəldi, rəsmi Berlinin ünvanına sərt etirazlar müşahidə olundu. Amma bu etirazlar iki qardaş ölkədə qısa müddət çəkdi.**

Qətnamənin qəbul edildiyi ilk günlərdən Almaniyanın Azərbaycandakı səfirliyinin önündə aksiyalar təşkil olunacağı, nümayəndəliyə etiraz məktublarının təqdim ediləcəyi gözlənilirdi. Amma bunların da heç biri baş vermədi. İyunun 14-də Milli Məclisin növbədənkənar iclasında alman bundestaqının qərarı bir daha gündəmə gətirilib. Parlament partiyalarının birgə Almaniya səfirliyinə etiraz məktubunun göndərilməsi təklifi səslənib. Amma təklifin üzərindən sükutla keçilib.

**KXCP sədri Mirmahmud Mirəlioğlu ictimaiyyət arasında qətnamə ilə bağlı ciddi etirazları müşahidə etmədiyini söylədi:** "Başqa ölkələrdə belə məsələlərə necə münasibət varsa, bizdə də belə oldu. Amma fərqli münasibəti partiyamız göstərdi. KXCP Almaniya-Türkiyə münasibətlərini ortaya qoyaraq, verdiyi bəyanatda bildirdi ki, müttəfiqinə öz mövqeyini bildirmək üçün 101 il vaxt lazımdır. Hər kəs özünəməxsus etirazını bildirdi. Oturuşmuş cəmiyyət olduğumuzdan məsələyə ayıq şəkildə baxırıq. Aparılan siyasətə uyğun cəmiyyətin münasibəti görünür. Qəzetlər, siyasi partiyalarda müəyyən senzuralar qoyulur. Bu baxımdan cəmiyyətin bu məsələdə susqunluğu görünə bilər. Biz Türkiyə və Almaniya səfirliyinə müvafiq məktublarımızı göndərdik. Amma təəssüflər olsun ki, alman səfirliyindən olan cavab daha dolğun və başadüşülən idi, nəinki Türkiyə səfirliyinin münasibəti. Şükürlər olsun ki,



**Mirmahmud Mirəlioğlu:** "Susqunluqdan daha çox oxşama, uyğunlaşma var"



**Fəzail Ağamalı:** "Türkiyənin özü də məsələyə sanki dırnaqarası baxdı"

komsomol fikirli bu şəxsi dəyişdilər. Azərbaycanın Türkiyə hökumətinin atdığı addımlara uyğun hərəkət etdiyini unutmaq olmaz. Bakı, sadəcə, rəsmi Ankaranın münasibətindən çıxış edir. Burada susqunluqdan daha çox oxşama, uyğunlaşma var".

**İqtidaryönlü deputat Fəzail Ağamalı bildirdi ki, ölkə başçısının Almaniya səfərində Bundestaqla bağlı görüşlərin proqramdan çıxarılması Azərbaycanın etirazının ciddi forması idi:** "Prezident səviyyəsində bu məsələyə ciddi etiraz da olunub. Parlamentin 14 iyun iclasında deputatlardan mən və Qənirə Paşayeva məsələyə öz münasibətimizi bildirdik. Dostluq qrupunun Almaniya Bundestaqına etiraz məktubu göndərməsini təklif etdik. Qətnamə qəbul edildikdən sonra Azərbaycan cəmiyyətində etiraz oldu, amma istənilən şəkildə yox. Fəallıq geniş miqyas almadı, səfirlik qarşısında etirazlar olmadı. Bunu təqdir etmirəm. "Erməni soyqırımı"nın Almaniya və digər bu kimi ölkələr tərəfindən qəbul edilməsi haqsız yanaşmadır. Olmayan bir hadisənin gündəmə gətirilməsidir. Bu, sadəcə, Türkiyəyə qarşı bir təhdiddir. Qardaş ölkənin nüfuzunun güclənməsindən ciddi narahat olaraq, münasibətlərini bu cür ifadə edirlər. Bunun arxasında heç şübhəsiz ki, Türkiyənin zəiflədilməsi planları durur. Bu zəifləmə Azərbaycanın maraqlarına cavab vermir. Hər zaman Türkiyənin güclü olmasını arzu edirik. Çünki problemlərimizin həllində daim türk qardaşlarımız yanımızda olublar. Bu gün də Azərbaycan Türkiyənin yanındadır. Ölkə başçısı iştirak etdiyi bütün tədbirlərdə, yüksək səviyyəli görüşlərdə Türkiyənin dövlət maraqlarını Azərbaycan kimi önə çəkib. Bu, cənab prezidentin siyasətinin tərkib hissəsidir".

**Deputat cəmiyyətin "erməni soyqırımı" ilə bağlı passivliyinə təəssüfləndiyini dilə gətirdi:** "Cəmiyyətin bütün təbəqələri bununla bağlı etirazlarını ifadə etməli idilər. Əslində Türkiyənin özündə də bunlar ciddi etirazlarla müşahidə olunmadı. Sanki Türkiyənin özü də bu məsələyə dırnaqarası baxdı. Bu qətnamənin Türkiyəyə zərbə vuracağını düşünmürəm. Amma fəallığımızı qoruyub saxlamalıyıq. Prezidentin Almaniya səfərinin etirazların səngiməsinə səbəb olduğunu düşünmürəm. Ölkə başçısı səviyyəsində etiraz varsa, bu, cəmiyyətə bir mesajdır. Bu etiraza uyğun ictimaiyyət hərəkət edə bilərdi. Əslində bəzi siyasətçilər bunu etdilər. Amma müxalifət burada səsini yüksəltmədi. Bu da təəssüf doğurdu".

❑ Cavanşir ABBASLI

**Müsahibimiz məktəb illəri 90-cı illərə təsadüf edən gənclərin sevə-sevə oxuduqları kitabların müəllifi, sabiq təhsil naziri Firudin Cəlilovdur.**



# "Elçibəylə bir hərfin üstündə bir-birimizi qırdıq, küsülü qaldıq"

## Firudin Cəlilov: "İndi türkçü kimi tanınan dostlarım sovet dövründə məni pantürkist kimi qələmə veriblər"

*Bizi öz evində qonaq edən Firudin müəllimlə söhbətimizə öncə onun sağlıq durumunun necə olması ilə başlayırıq.*

- Siz gəlməmişdən bir az qabaq 3-4 dənə dərman içdim. Dərmanla özümü saxlayıram. Allaha şükür ki, əməliyyatlardan sonra yaxşıyam. Özümü babat hiss edirəm.

***- 70 illik yubileyinizə az qalıb. Qayıdıb arxaya baxanda nə hiss edirsiniz? Necə bir ömür keçirmisiniz?***

- Mənim həyatım da Azərbaycan ziyalılarının həyatı kimi keçib. İrəvanda dünyaya gəlmişəm. Bakıda məktəbi bitirmişəm, daha sonra ali məktəbi bitirmişəm. Çoxlu sahələrdə işləmişəm. Başqalarının ömrü boyu bir əmək kitabçası dolmadığı halda mənim iki əmək kitabçamın ikisi də dolub. Yol idarəsində, arıçılıqda, dənizçilikdə, «kommunxoz» idarəsində və yüksək vəzifələrdə işləmişəm. Çox yerlərdə çalışmışam. Son 20 ilimi isə universitetdə keçirmişəm.

Universiteti bitirəndən sonra məni orada saxladılar. Laborantlıqdan professorluğa qədər oxudum, işlədim. Sonra təhsil nazirinin müavini vəzifəsinə təyin olundum. Onda Ayaz Mütəllibov iqtidar idi. Sonradan baş nazirin müavini oldum. Rəhim Hüseynov baş nazir olanda, dəvət elədilər, baş nazirin müavini təyin elədilər. Dostum Elçibəy hakimiyyətə gələndən sonra isə məni təhsil naziri təyin elədi. Heydər Əliyev gələndən sonra da bir müddət işlədim. Sonra isə işdən çıxartdılar. O gün-bu gündür işsizəm, evdə oturmuşam.

***- Sizə iş təklifi gəlmir, yoxsa özünüz imtina edirsiniz?***

- Özüm əlbəttə ki, işləmək istəyirəm. Ömrümün ən məhsuldar dövrünün 20 ilini evdə oturası oldum. Hətta universitetlərdə müəllim işləməyə də qoymurlar.

***- Səbəb nədir?***

- Konkret bir səbəbi yoxdur. Onu heç kim bilmir. Ancaq dolayı səbəb odur ki, guya mən müxalifətçiyəm, hansı auditoriyada olsam, o auditoriyada milli ruhlu gənclər yetişir, mitinqlərə həvəsli olurlar. Yəqin ki, öz aralarında bu cür diaqnoz qoyub işləməyimə imkan vermədilər.

**"Düşünürlər ki, mən müxalifətçiyəm, hansı auditoriyada olsam, o auditoriyada milli ruhlu gənclər yetişir, mitinqlərə həvəsli olurlar"**

***- Bəs gəncliyinizdə hədəf götürdüyünüz nöqtəyə çata bildinizmi? Öz istədiyiniz Firudin Cəlilov ola bildinizmi?***

**"Yeni qurulan müstəqil Azərbaycanın bütün dövlət atributlarını - əlifbamızı, himnimizi, bayrağımızı bu əllərimlə hazırlamışam"**

- Yox, təbii ki, yox. Mən uşaqlıqda rəssam olmaq istəyirdim. Ancaq həyat elə gətirdi ki, universitetdə oxuyası oldum. Elm dalınca getdim, namizədlik, doktorluq müdafiə elədim, elmdə müəyyən uğurlarım oldu. Ancaq həyat da öz redaktəsini etdi. Zaman elə gətirdi ki, Azərbaycanda Qarabağ məsələsi ortaya çıxdı. Bütün vicdanlı adamlar kimi mən də hərəkatdan geri qala bilməzdim. Hərəkatı başladanlardan biri də mən oldum. Həyat bizi öz istədiyi istiqamətə yönəltdi və son 30 ili həmin istiqamətdə gedirik. Buna alın yazısı deyirlər. Təbii ki, alın yazısı alındakı bu qırışlar deyil. Alın irəli deməkdir, yəni insan həyatının irəlidəki yazısı. Mən irəlidəki o yazıya inanıram. Hamımız o yazıya doğru gedirik.

***- Həyatınızın ən uğurlu dövrü hansıdır?***

- Kitablarımın çapdan çıxdığı dövrlər mənim üçün ən uğurlu dövr olub. Minlərlə məqalələrim var. Kitablarım mənə övladlarım qədər əzizdir. O kitablara canımı, ömrümü qoymuşam. Bu səbəbdən kitablarımın çap olunduğu dövrü ən uğurlu illər hesab etmişəm.

***- Elmlə məşğul olmaq, kitab çap etdirmək hansı dövrdə daha asan idi?***

- Azərbaycanda həmişə çətin olub. Sovet dövründə kitab çap etdirmək üçün gərək bir-iki il əvvəldən plana düşəydin, senzuradan keçəydin. O dövrdə də başıma çox oyunlar açıblar, pantürkist kimi qələmə veriblər. Özü də bunu indi türkçü kimi tanınan dostlarım edib. Kitablarımı plandan çıxarıblar. O dövrün belə çətinlikləri var idi. İndiki müstəqillik dövrünün də öz çətinlikləri var. İndi sponsorsuz kitab çap eləmək mümkün deyil, sponsor tapmaq da çox çətindir.

***- Firudin müəllim, milli azadlıq hərəkatını başladan fəalların içində siz də var idiniz. Üzərindən 28 il keçib. İndiki dövrdən həmin illərə baxanda, təəssüratlarınız necə olur?***

- O dövrdə biz hərəkata kənardan baxa bilmirdik. Heç buna vaxtımız da yox idi. İnsanları meydana aparmaq lazım idi, hökumətə qarşı ultimatum vermək lazım idi. İmperiyaya qarşı şüarlar hazırlamaq lazım idi. Fikirləşməyə vaxtımız olmurdu ki, özümüz özümüzə qiymət verək. İndi üzərindən 25 ildən çox vaxt keçib. Qayıdıb geriyə baxanda çox şərəfli günlər yaşadığımızı görürəm. Səhvlərimiz olubmu? Təbii ki, olub, bu gün də var. O hərəkatın yükünü çiyinlərində daşıyanlardan biri də Məhəmməd Hatəmi Tantəkin olub. O, çox ağır vəziyyətdə xəstə yatırdı və ötən gün dünyasını dəyişdi. Allah rəhmət eləsin. Ona heç olmasa normal pensiya vermirdilər ki, dolanışığını təmin eləsin. 80 yaşı var idi və bu günə qədər ona müxalifət kimi baxıb kənarda saxladılar. Ancaq bu ayıbdır. Yaxud son günlər Elçibəyi çox qamçılayırlar. Düzdür, onun səhvləri də olub, günahları da olub. Mən hər zaman səhvlərini onun üzünə demişəm. Bizim komandada olanlar bilir ki, biz onunla yaxın dost olmuşuq. Buna baxmayaraq, mübahisələrimiz düşüb, aylarla küsülü qalmışıq. O, prezident olub, mən isə baş nazirin müavini, bütün səhvlərini üzünə demişəm. Ancaq indi üstündən 20 ildən artıq vaxt keçib, onun dalınca danışmaq, çamura batırmaq ən azı tərbiyəsizlikdir.

***- Həmin dövrdə hansı uğurlarınız olub?***

- Çox uğurlarımız olub. Düzdür, indi bizi bəyənmirlər. Ancaq mən bu əllərimlə yeni qurulan müstəqil Azərbaycanın bütün dövlət atributlarını hazırlamışam. Bayrağın rənglərini, o rənglərin mənalarını, himnimizi, əlifbamızı hazırlayıb keçirtmişəm. O dövrdə həmin komissiyanın sədri mən idim, bu, mənim vəzifəm idi. O günləri xatırlayanda fəxr edirəm.



**"Biz gələcəyə sağlam gənclər yetişdirmək əvəzinə, sıxıb onların suyunu çıxardırıq, əzilmiş gənclik yetişdiririk"**

***- Təhsil naziri olarkən Azərbaycan təhsil sisteminə hansı yenilikləri gətirdiniz?***

- Bəli, ilk dəfə test imtahanlarını Azərbaycan təhsilinə mən gətirdim. Nazirlər Kabinetində işləyəndə Ali Attestasiya Komissiyasını mən yaratdım. O günə qədər Azərbaycanda belə bir qurum yox idi. Tələbə Qəbulu Komissiyasını yaratdım. Maraqlısı odur ki, həmin dövr üçün bu qurumlar yaxşı işləsə də, get-gedə zayı çıxdı. Ona baxanda adam peşman olur. Ali Attestasiya Komissiyasını da, TQDK-nı da mən yaratmışam, ikisinə də baxanda peşman oluram ki, mənim yaratdığım qurumlar gənclərin qarşısında maneə olub. Ali Attestasiya Komissiyası imkan vermir ki, gənclər elmə gəlsin, rüşvət baş alıb gedir. Mənim qurduğum TQDK indikindən tamam fərqli bir struktur idi. İndiki test sistemi gəncləri get-gedə manqurtlaşdırır, biz belə fikirləşməmişdik. Bu mənada gördüyümüz bəzi işlərin də fəsadları oldu ki, artıq bizdən asılı deyil, indiki iqtidardan asılıdır. İndiki iqtidarın intellektual səviyyəsindən, iştahından, gödənindən asılıdır.

***- Firudin müəllim, o dövrdə siz də hakim komandanın tərkibində olmusunuz. Lakin heç vaxt 4 iyun məsələsinə münasibət bildirməmisiniz. Bunun səbəbi nədir?***

- Bu 20 ildə mənə bu sualı verən olmamışdı, ilk dəfə siz verirsiniz. Yəqin baxmış olarsınız, 4 iyundan sonra parlamentdə bu məsələ müzakirə olunanda mən orada yoxam. Heç kim də soruşmur ki, axı sən millət vəkili və nazir idin, o Məclisdə niyə yoxsan. Həmin ərəfədə məni respublikadan çıxardıb, iki həftəlik Misirə göndərdilər. 4 iyundan 2 gün öncə məni xaricə göndərdilər. Mən isə nə baş verəcəyindən xəbərsiz idim və sevindim ki, nəhayət, məni də istirahətə yolladılar. Bir də qayıdanda hava limanında eşitdim ki, Elçibəy Bakıdan gedib. Sonradan fikirləşdim ki, bu planı kim qurubsa, çox ağıllı şəkildə fikirləşib ki, həmin günlərdə mən və mənim kimi adamlar burada olmayıb.

***- Yəni "4 iyun"un mətbəxində siz yox idiniz?***

- Bəli, mən iştirak etməmişəm. Ancaq orada çox məqamlar var ki, nə vaxtsa bu məsələni detalları ilə danışacam.

**"Ali Attestasiya Komissiyasını da, TQDK-nı da mən yaratmışam, ikisinə də baxanda peşman oluram ki, mənim yaratdığım qurumlar gənclərin qarşısında maneə olub"**

***- Siz olsaydınız nə dəyişərdi?***

- Yəqin ki, mən Elçibəylə görüşərdim və sözümü deyərdim. O vaxt Elçibəyin ətrafındakılar hamısı kənardan gəlmiş adamlar idi. Yeganə dostu mən idim ki, 70-ci illərdən bir yerdə idik. Başqa cür də ola bilərdi...

***- Elçibəyin getməsini istəyən qüvvələr var idimi?***

- Xarici faktorlar var idi. Türkiyə prezidenti Süleyman Dəmirəl birmənalı şəkildə Elçibəyin getməsini istəyirdi. Bundan əlavə, Elçibəyin getməsində İranın, Rusiyanın da marağı var idi. Onlar yüz faiz istəyirdi ki, hakimiyyət dəyişsin.

***- Bayaq dediniz ki, Əbülfəz Elçibəylə mübahisələriniz olub? Məsələn, nə üstündə olurdu mübahisə?***

- Böyük məsələlər üzərində də mübahisəmiz olurdu, kiçik şeylər üstündə də. Məsələn, mən Əlifba Komissiyasının sədri idim. Əlifbanı qəbul etdirəndə böyük etirazlarla qarşılaşdım ki, onların da başında rəhmətlik Elçibəy dururdu. O təkid edirdi ki, Türkiyə əlifbasını olduğu kimi qəbul edək, yəni X, K, Ə hərfləri olmasın. "X" üstündə qırdıq bir-birimizi . İsa bəy gəlib bizi sakitləşdirdi ki, etməyin, ayıbdır. Bir hərfin üstündə küsülü qaldıq. Dedim ki, illərdir bu xalqın dilində "X" səsi var, mən kiminsə xətrinə ondan imtina edə bilmərəm. Və əlifbanı keçirdim. Məndən küsdülər, cəbhənin yarısı mənim əleyhimə çevrildi. Bu günə qədər də onlar AXCP-nin loqosunda "X" yazmırlar, AHC yazırlar.

***- Keçək təhsilimizə. Bugünkü təhsilimizi necə dəyərləndirirsiniz? Sizdən sonrakı nazirlər, Misir Mərdanov, Mikayıl Cabbarov təhsili siz istəyən pilləyə qaldıra bildimi?***

- Misir Mərdanov təhsili bilən adam idi, mənim müavinim olmuşdu. Ancaq onda bildiklərini gerçəkləşdirmək, yeniliklər etmək üçün iradə, təşəbbüskarlıq yox idi. Onun gətirdiyi kurrikulum da çox mənasız bir şeydir, təhsilimizə ziyandan başqa heç nə vermədi. İndiki nazir də təhsil adamı deyil. Düzdür, savadlıdır, ancaq təhsildə reforma edəcək insan deyil. Təhsilimiz son 25 ildə bataqlığa gedir. Çünki bu sahədəki məmurların yenilik etməyə marağı yoxdur. İkincisi, dərsliklər biabırçı vəziyyətdədir. Üçüncüsü, tədris proqramı ilə bağlı hərc-mərclikdir. Xüsusilə orta məktəb təhsili dəhşətdir. Uşağı o qədər yükləmək cinayətdir, uşaq uşaqlığını yaşaya bilmir. Dərs ilinin iki həftə uzadılması isə lap biabırçılıqdır. Biz gələcəyə sağlam gənclər yetişdirmək əvəzinə, sıxıb onların suyunu çıxardırıq, əzilmiş gənclik yetişdiririk.

***- Firudin müəllim, bizdə elmin yox səviyyəsində olduğunu iddia edənlər var. Bu iddia ilə razılaşırsızmı?***

- O ölkə inkişaf edir ki, elmə sərmayə qoyur. Bu ən qiymətli sərmayədir. Bizim təhsil sistemi nə gündədirsə, elm də o gündədir. Elmdə geriləmənin ilk səbəbi təhsildən gələn zəifikdir. İkinci, akademiya sistemində olan rəhbərlikdir. Onlar yerində olmayan adamlardır. Nə vaxt ki, akademiyanın başında yaxşı rəhbər olub, elm inkişaf edib. Məsələn, Yusif Məmmədəliyevin vaxtında... Digər səbəb odur ki, büdcədə elmə az vəsait ayrılır. Bir də gənclərdən tələb edilən sənədlər, prosedurlar onları bezdirir. Bu maneələr də vaxtilə mənim yaratdığım Ali Attestasiya Komissiyası tərəfindən edilir. Təsəvvür edin ki, mən nə hisslər keçirirəm.

❑ **Nərgiz LİFTİYEVA**

**Fotolar Məğrur Mərdindir**

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016

# Elmi nöqteyi-nəzərdən



Zamin HACI
zaminhaci@gmail.com

**Deputatxana üzvlərimiz yay tətilinə çıxmazdan öncə “Elm haqda” Azərbaycan Respublikasının Qanununu düzəltdilər. Sevindirici haldır, görünür, buna qədər ölkəmizdə elm qanunsuz fəaliyyət sferalarından biri imiş. Təxminən Gürcüstana narkotik keçirmək kimi. Ya da hökumətin əleyhinə düşünmək, heykələ tərs baxmaq, "Formula-1" marşrutuna banan qabığı atmaq və sairə tipində - baxır sən dövlətçiliyə zidd qüvvənin hansı sortuna məxsussan. İndən belə alimlərimiz mələyin uçma sürətini, namazın qılınma vaxtlarını, Günəşin Yer, xüsusən də Azərbaycanımız ətrafında fırlanması periodunu, yarpaq dolmasına neçə qram duz atmağın lazım gəldiyini və sairə elmi hesablamaları artıq qanuni şəkildə edəcəklər.**

Bəlkə hansısa savadsız adamlar yuxarıda saydığım elmi hesablamaları Conatan Sviftin məşhur romanındakı akademiyadan götürdüyümü zənn edərlər, bunu nəsə şit zarafat sayarlar, o zaman mən də deyərəm gedin ağlınıza dua yazdırın, çünki sadaladıqlarım hamısı bizim AMEA-da müdafiə edilmiş elmi işlərdən çıxarışlardır.

Elə bu dəfə də alimlərimiz borclu qalmayıbdır, “Elm haqda” Azərbaycan Respublikası Qanununun qayırılması münasibətilə AMEA-nın saytında çox vacib bir xəbər yerləşdiriblər: yay 21 iyunda girəcəkdir! Hətta saatını da yazmışdılar, diqqətlə oxumadım, yadımdan çıxıb. Əhsən! Əgər bizim alimlər yayın girdiyini yazmasalar, bəlkə yay da girməz. Atmosfer elə bilər hələ yazdır, İsmayıllını yenə sel aparar. Bizə belə destruktiv fəsillər lazım deyil.

Çalışmaq lazımdır vergi, polis və başqa güclü orqanlara aid “nə alsan yarısı sənindir” qanunu alimlərə də münasibətdə işləsin. Onlar da nə kəşf eləsələr yarısı onların olsun. Misal üçün, yayın girmə vaxtını tapdığı üçün akademik Akif Əlizadəyə avqustda 1 ton keçiməməsi sortundan üzüm verilsin. Yaxud İsa Həbibbəyli müəllim “Milli Qurtuluş Günü Cəlil Məmmədquluzadənin əsərlərində” mövzulu elmi araşdırmalarına görə qışda xaş xammalı ilə təchiz edilsin.

Yoxsa doğrudan ayrı-seçkilik kimi çıxır. Qabaqlar vergi müfəttişləri cərimə yazanda bunun 25 faizinə şərik idilər, təzə qanunla isə 50 faizini alacaqlar. Rəsmən soyğunçuluq qanunudur: “Dövlət büdcəsindən maaşa artıma ümid eləmə, gör özün hansı karvanı, yolçunu, karvansarayı basıb soya bilirsən”.

Yeri gəlmişkən, bəzi yapist deputatlar guya bu dəyişikliyə etiraz ediblər, deyirlər bəs cəbhə xəttindəki əsgər necə qazanacaq. Boş söhbətdir. Əsgərlərimizə də “Hansı təpəni alsanız yarısı sizindir” qanunu düzəltməliyik. Bu, hələ makedoniyalı İsgəndərin vaxtından qalma ordunu həvəsləndirmə üsuludur. Belə olsa biz işğaldan tez qurtularıq. Yoxsa ədalət hardadır, sən canını qoyub təpəni alırsan, icra hakiminin müavini ilə hansısa qotur yol idarəsinin müdiri isə buldozerlə gəlib orda qızıl axtarır? Təpəni kim alıbsa, altındakı qızıl da onundur. Əslində, söz vaxtına çəkər, 1993-cü ilin iyunundan bəri ümumrespublika qanunu belədir və “təpəni” alan qızılı da “təpələşdirir”, sadəcə, könül istəyir bunu regional miqyasda da tətbiq edək, qara camaata da nəsə çatsın. Əks halda malların yarısını sümürmə həvəsi ilə karvana basqın yapan vergi zəhmətkeşləri karvan əvəzinə bir dəri bir sümük dəvə leşləri ilə qarşılaşar. Qaratikan, qanqal, çör-çöp, çayır, alaq-malaq kimi şeylləri bir az inhisardan çıxarmaq lazımdır, xalqa açılım eləmək məsləhətdir. Mən bunu elmi baxımdan yazıram. İnsan uzağı ay yarım ac qalır, sonra dövlətimizin analoqu olmayan inkişafını, növbəti illərin Formula-1 yarışlarını görmədən ayağını uzadıb ölür. 6 həftə - maksimum müddət budur.

İndi elm haqda qanun qəbul edilib, gərək biz hər şeyə elmi yanaşaq, yoxsa adamı tutub dama salarlar. Bura bir elmi nöqtə qoyuram.

# “Heydər Əliyevin əl-ayağına düşüb yalvarırdılar ki, gəl Bakıya”

## Eldar İbrahimov: “O, bir dəfə də mənə dedi ki, Eldar, ürəyimdə o qədər sirlər var ki, bunlar mənimlə o dünyaya gedəcək”

**Bu günlərdə 1993-cü ilin iyun hadisələrindən bəhs edən xeyli yazılar dərc olundu, üstündən xeyli keçməsinə baxmayaraq, bir sıra hallarda səslənən fikirlər sərt reaksiyalar doğurdu, qarşılıqlı ittihamlara səbəb oldu. Heydər Əliyevin Bakıya dəvət olunması və ondan sonra cərəyan edən bəzi məsələlərlə bağlı isə “91-lər”dən biri olan deputat, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimovla danışdıq.**



**“Heydər Əliyevin Elçibəyə şəxsi münasibəti barədə bir söz deyə bilmərəm, bu barədə danışmamışdıq”**

***- Eldar müəllim, üstündən 23 il keçəndən sonra Heydər Əliyevin Bakıya dəvət olunmasını necə xatırlayırsınız?***

- Mən o zaman Naxçıvandaydım. Ancaq ümummilli lider Heydər Əliyevlə danışdım və iyunun 7-si Bakıya gəldim. Özü də mənə dedi ki, get Bakıya. Biz müəyyən məsələləri bilmək istəyirdik. Yəni ki, görək onun bura gəlməyinə münasibət necədir. Düzdür, təyyarə göndərmişdilər, Heydər Əliyevi dəvət edirdilər. Mən də Bakıya gəldim, müəyyən məsələlərə aydınlıq gətirməyə çalışdım. Sonradan bu barədə Heydər Əliyevlə söhbətlərimiz oldu. 9 iyunda isə Heydər Əliyev təyyarə ilə gəldi. Ancaq Bakıya gələndə onun yanında kimlərin olduğu mənim xatirimdə deyil. Biz Heydər Əliyevi aeroportda, yüksək səviyyədə qarşıladıq, ondan sonra Əbülfəz Elçibəylə görüşə getdi.

***- Qarşılanma mərasimində daha kimlər var idi?***

- Qarşılayanların içində bizim partiyadan Rəfael Allahverdiyev var idi. Heydər Əliyevin təhlükəsizliyini təmin edən adam Mahir Cavadov idi. Hətta məni də buraxmırdılar, yadımdadır, Rəfael gəldi ki, neynirsiniz, bu, Eldar İbrahimovdur. Sonra özü də tanıdı, buraxdılar, qarşılanmada iştirak etdim. Etibar Qazıbəyov da ordaydı. Çox adam var idi, ancaq adları elə də xatırlamıram.

***- Demək, təyyarə iki gün ərzində Naxçıvanda gözlədi...***

- Təyyarə iyunun 6-da getmişdi. 7-si gecəyarısı, hardasa 2-3-ün yarısında zəng etdim, Heydər Əliyevlə danışdım, dedim bəs filan məsələlərlə bağlı Bakıya getmək istəyirəm. O da dedi ki, get, əlaqə saxlayarıq. Sonrasını mən bilmirəm.

***- Demək, üç gün ərzində Bakıya gəlməklə bağlı ciddi tərəddüdlər, ehtiyatlanmalar olub?***

- Bəli. Bütün məsələlər müzakirə olunub. Heydər Əliyev özü dünyagörmüş adam idi, böyük siyasətçiydi və bu işləri hamıdan yaxşı bilirdi. Orda hər şeyi ehtimal etmək olardı ki, təyyarə göndərilib, amma təyyarə qayıdanda onun taleyi necə olacaq. Bu mənada hər şey nəzərdə tutulurdu, götür-qoy edilirdi.

***- Necə bilirsiniz, Elçibəy Heydər Əliyevi hakimiyyətə dəvət edəndə hansısa başqa dövlətlərlə razılaşma aparılmışdımı, yaxud məsələ müzakirə edilmişdimi? Yaxud Heydər Əliyev hansısa xarici ölkədən özünə təhlükə görürdümü?***

- Hər şey ola bilərdi. Mən onu dəqiq deyə bilmərəm ki, nə fikir var idi, nə yox idi. Ancaq mən hətta 18 may 1992-ci ildə Heydər Əliyevin Ali Sovetə namizədliyini irəli sürəndə orada “9 ölkə ilə danışmışıq, Dağlıq Qarabağı azad edəcəyik” kimi fikirlər səsləndirilirdi. Təbii ki, bunlar hakimiyyətə gəlmək üçün boş fikirlər idi.

***- Ancaq Elçibəy Heydər Əliyevlə əməkdaşlıq təşəbbüsü ilə çıxış etdi və bu, hətta hakimiyyətin kursunu müdafiə edən bəzi şəxslər tərəfindən də təqdir olunur.***

- Bəli, o vaxt Elçibəy özü danışdı. Bundan başqa, eşitdiyimə görə, İsa Qəmbər, Pənah Hüseyn də danışıb, Heydər Əliyev dəvət olunub. Çünki ağır, gərgin vəziyyət idi, ölkə qarışmışdı. Ona görə dəvət etdilər. 24 oktyabrda Naxçıvanda dövlət çevrilişi etmək istəyən insanlar sonradan Heydər Əliyevin əl-ayağına düşüb yalvarırdılar ki, gəl Bakıya, bizə kömək elə, vəziyyətdən çıxaq.

***- Ancaq Heydər Əliyevi Bakıya dəvət edəndən sonra Elçibəyin Bakını tərk etməsinin səbəblərindən hələ də danışılır. Necə bilirsiniz, sirlər tam açılıbmı, yoxsa hələ bilmədiklərimiz var?***

- Sirlər yəqin ki, açılmayıb. Çünki o sirləri açmaq çox çətin məsələdir. Hərə bir fərziyə söyləyə bilər, amma hər deyilən həqiqət deyil. Bir dəfə ulu öndər Heydər Əliyevlə söhbət edirdik... Çox söhbətlərimiz olub. Moskvada birgə işlədiyi yoldaşlarından, Bakıda, 1-ci katib olduğu dövrdəki işçilərindən çox danışırdı, gileylənirdi. Bir dəfə də mənə qayıtdı dedi ki, Eldar, ürəyimdə o qədər sirlər var ki, bunlar mənimlə o dünyaya gedəcək. İndi bunlar sirdir. Belə məsələlər hər bir adamın ürəyində gedir. Mənim də ulu öndərlə bağlı o qədər danışmadığım sirlər var ki, yəqin bunlar da mənim ürəyimdə özümlə o dünyaya gedəcək. Bunlar açıqlanası, deyiləsi söhbətlər deyil. Deyilə bilər, ancaq hərə bir reaksiya verəcək. Təsdiqi üçün şahid lazımdır. O danışıqlarda isə şahidlər olmayıb. Yəni elə işlər var ki, şahidsiz gedir, amma çox vacib məqamlardır, amma dövlətçilik yolunda çox vacib məqamlardır.

***- Bu mənada demək olarmı ki, Heydər Əliyevlə Əbülfəz Elçibəy arasındakı son görüşdəki söhbət də sona qədər açılmadı?***

- Yox, açılmadı. Bəlkə kimsə detalları bilir, amma mən bilmirəm.

***- Qardaşı Almurad Əliyev də demişdi ki, Elçibəyin Heydər Əliyevə ilk türk Siyasi Büro üzvü kimi böyük simpatiyası olub. Hətta otağında onun portreti olub. Bəs Heydər Əliyevin Əbülfəz bəyə münasibəti necə idi?***

- Mən də bu barədə eşitmişəm. Amma görmədiyim şeyi havadan danışmağım düz olmaz. Mən reallığa söykənən və reallığı sevən adamam, elə-belə, utopiya ilə danışmaq istəmirəm. Əlbəttə, hələ, Heydər Əliyev “KQB”də işləyəndə Əbülfəz Elçibəy universitetdə çalışırdı, onda onu tutturdular, Heydər Əliyev ona kömək edib, həbsinə imkan verməyib. Yəni belə şeylər olub. Lakin Heydər Əliyevin Elçibəyə şəxsi münasibəti barədə bir söz deyə bilmərəm, bu barədə danışmamışdıq.

***- Eldar bəy, bəzən belə fikirlər səslənir ki, bu iki şəxs əl-ələ verib birgə işləsəydi, Azərbaycan bir sıra fəlakətlərdən xilas olar, ərazilərimizin böyük hissəsi işğal olunmazdı, daha mükəmməl cəmiyyət qurmaq olardı. Razılaşırsınız?***

- Bilirsiniz, Əbülfəz Elçibəy idarə olunan adam idi, Heydər Əliyevsə idarə edən. Əbülfəz Elçibəy dövlətçilikdə təcrübəsi olmayan adam idi. 13 ayda bu, açıq-aydın göründü. Buna qiymət vermək çox çətindir. Bizim siyasətçilərimiz hərəsi bir fərziyə ilə danışır. Amma bu məsələlərin hər birinin arxasında müəyyən məqamlar var axı. Mən bilmədiyim şeylər haqqında danışmaq istəmirəm.

***- Amma bildiyiniz məsələləri də axıra qədər danışmırsınız...***

- Bəli, bildiyim şeylərin də bəzilərini sonadək danışmamışam. Çünki hərə bir cür baxar, xeyir gətirməz.

***- Vaxtilə deyirdilər ki, “KQB” arxivləri açılsa, ölkədə fəlakətli vəziyyət yaranar. Demək olarmı ki, 93-cü il sirləri də arzuolunmaz vəziyyətlərə gətirib çıxarar?***

- Yox, elə də çox məsələlər yoxdur. Bəzilərindən yuxarıda danışdıq. Biz müxalifətdə olan YAP idik, əlbəttə, bizim də məqsədimiz o idi ki, hakimiyyətə gələk. Bu yolda da iş aparırdıq. Onlar da hakimiyyətə necə gəldi, bunu hamı bilir. İndi bu, həyatdır da. Hərənin bir yolu var. Təbii ki, mən də hərdən düşünürəm ki, bəlkə Heydər Əliyevlə Əbülfəz Elçibəyin münasibətləri alınardı, ölkədə bir iş görmək üçün əməkdaşlığı baş tuta bilərdi. Amma dərindən düşünəndə belə qənaətə gəlirəm ki, onlar ayrı-ayrı adamlar idilər və fikirləri üst-üstə düşə bilməzdi. Heydər Əliyev böyük adam idi, hər şeyə dözə bilərdi. Amma yəqin Əbülfəz Elçibəy özü də gördü ki, 1 illik hakimiyyəti dövründə bir şey edə bilmədilər, torpaqlar işğal olundu, Azərbaycan qırx arşın quyunun dibinə düşdü. Bəlkə ona görə də düz elədi ki, Kələkiyə getdi, sonra da vəzifəyə qayıtmadı.

❑ **Elşad PAŞASOY**

# Azərbaycan strateji müttəfiqi ilə strateji tərəfdaş arasında

# Qarabağ düyünü və Rusiya-Türkiyə barışı - Bakı iki konfliktin episentrində!

**Kremlin münaqişənin həllində şəriksiz moderatorluq iddiası onu Ankara ilə münasibətləri ilıqlaşdırmaq zorunda qoyur; Ərdoğanın sülh məktubuna Putinin verəcəyi cavab Qarabağ və müharibə məsələsinə də işıq sala bilər, çünki...**




**Bu günlərin ən sensasiyalı olaylarından biri Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı Vladimir Putinə göndərdiyi təbrik məktubu sayıla bilər. Xəbər verildiyi kimi, məktubda Ərdoğan rus xalqını Rusiya Günü münasibətilə təbrik edib və "yaxın vaxtlarda Moskva-Ankara münasibətlərinin layiqli səviyyəyə çatmasını" arzulayıb.**

Məktubun tonu isə xüsusi diqqət çəkir. **Sitat: "Çox hörmətli cənab prezident! Türkiyə xalqı adından Sizin simanızda bütün rusiyalıları Rusiya Günü münasibətilə təbrik edirəm. Eləcə də Rusiya-Türkiyə münasibətlərinin layiqli səviyyəyə çatmasını arzulayıram".** Türkiyə baş naziri Binəli Yıldırım da rusiyalı həmkarı Dmitri Medvedyevə eyni məzmunlu təbrik məktubu göndərib.

Siyasi müşahidəçilər bu faktı ötən il noyabrın 24-də "Su-24" təyyarəsinin vurulmasından sonra gərginləşən Türkiyə-Rusiya münasibətləri fonunda Ankaranın Moskvaya ən böyük barışıq jesti hesab edirlər. Üstəlik, belə bir jest münasibətlərin qaydaya salınmasında Azərbaycanın vasitəçi olmaq məsələsinin gündəmə gəldiyi vaxtda edilir. Hətta iddia var ki, artıq barışıq üçün "Yol xəritəsi" də hazırdır.

Yada salaq ki, Türkiyədə nəşr olunan "Bir gün" qəzeti Ərdoğanın Azərbaycan prezidenti İlham Əliyevdən və Belarus prezidenti Aleksandr Lukaşenkodan Putinlə münasibətləri düzəltmək üçün vasitəçilik etməyi xahiş etdiyini yazıb. Deməli, Moskva ilə əlaqələrin normal məcraya düşməsində Ankara səmimi şəkildə maraqlıdır. Bunu həmçinin ondan görmək olar ki, rus təyyarəsinin vurulmasında "əsas suçlu olan" keçmiş baş nazir Əhməd Davudoğlu da artıq öz vəzifəsində deyil.

***

Bəzi analitiklərə görə, Türkiyə ilə münasibətləri korlanan Avropa Birliyi Rusiyaya da sanksiyalar tətbiq elədiyindən, Moskva və Ankaranı həm də bu ortaq məsələ bir-birinə yaxınlaşdırır - "mehriban düşmənlər" kimi. İstənilən halda Rusiya və Türkiyənin küsülü qalmasının ən çox onların özünə ziyanlı olduğu artıq şəkk-şübhə doğurmur. Bu üzdən Bakının mümkün vasitəçiliyi də heç vaxt olmadığı qədər əhəmiyyət kəsb etməkdədir.

Görünən həm də odur ki, Türkiyə Rusiyadan üzr istəməyə də hazırlaşmır, sadəcə, hər iki tərəfə hava-su təki lazım olan barışıq yolları arayır. Türkiyə uzağı, təyyarəçinin vurulmasına görə üzr istəyə bilər, təyyarəyə görə yox. Çünki təyyarənin vurulması sərhəd pozuntusuna görə idisə, təyyarəçinin vurulması artıq yanlış qərar sayılır: beynəlxalq hüquq və humanizm nöqteyi-nəzərindən pilot əsir götürülməli idi.

**Türkiyənin üzr istəməyəcəyini dünən iqtisadiyyat naziri Nihad Zeybəkçi də təsdiqləyib. Nazir jurnalistlərə açıqlamasında Rusiyaya kompensasiya verilməyəcəyini də bildirib:** "Rusiyadan üzr istəmək kimi bir niyyətimiz yoxdur və belə şey ağlımızdan da keçmir. Lakin "Su-24"ün vurulması və sonra baş verənlər təbii ki, üzücüdür".

***

Türkiyə-Rusiya münasibətlərinə dəxli ola biləcək daha bir mühüm olay barədə. Bu arada Azərbaycan, Rusiya və Ermənistan prezidentləri arasında görüşün iyunun 20-də Sankt-Peterburqda keçiriləcəyi xəbəri yayılıb. Növbəti yüksək səviyyəli görüşün öncəki Vyana təmasından əsas fərqli özəlliyi isə odur ki, Moskva onu ATƏT-siz, Minsk Qrupu həmsədrləri və Qərbin iştirakı olmadan təşkil eləməyi planlaşdırır. Yəni faktiki surətdə hamıya mesaj vermək istəyir ki, Qarabağ məsələsində aparıcı söz sahibi, yeganə moderator və dominant ölkə məhz odur - Rusiya.

Doğrudan da belədir və aprel döyüşlərində, atəşkəsin əldə olunmasında bunu gördük. Son olaraq isə prezident İlham Əliyevin Almaniyaya səfəri zamanı kansler Angela Merkel etiraf elədi ki, Moskva məsələdə həqiqətən həlledici rola sahibdir. Bu, bir yandan yaxşıdır, ikinci yandan - pis. Yaxşıdır ona görə ki, Kreml istəsə, problemi qısa zamanda yoluna qoya bilər. Arzuolunmazdır o səbəbə ki, Rusiya konfliktdən öz maraqları naminə şəkildə sui-istifadə edə, status-kvonu uzada bilər. Necə ki, uzadır.

Lakin Kremlin bu məsələdə təkbaşına vasitəçilik və şəriksiz moderatorluq iddiası önündə ciddi bir əngəl var - Türkiyə. Rusiya istəsə də, istəməsə də Qarabağla bağlı planları onu bölgənin digər supergücü, NATO üzvü Türkiyə ilə münasibətləri ilıqlaşdırmaq və əməkdaşlıq etmək zorunda qoyur. İki dövlətin qarşılıqlı iqtisadi maraqları öz yerində, iş ondadır ki, Qarabağ məsələsində Türkiyənin maraqları nəzərə alınmadan Rusiyanın uzaq perspektivə hesablanmış regional və qlobal maraqları, o sırada sülhməramlı qüvvələrlə bağlı hədəfi təmin edilə bilməz.

Hər necə olmasa, Azərbaycan Türkiyə ilə daha isti və təbii strateji əlaqələrə malikdir, nəinki Rusiya. Həmin isti əlaqələrə korlanan Moskva-Ankara münasibətləri də neqativ təsir göstərə bilməyib - əksinə, iki qardaş ölkənin əməkdaşlığı, o cümlədən hərbi sahədə əməkdaşlığı bu dövrdə daha da güclənib və dərinləşib. Bunu Kremldə yaxşı bilirlər.

Odur ki, Ərdoğanın barış məktubuna Putinin verəcəyi cavabın Dağlıq Qarabağ probleminə, regionda yeni müharibə məsələsinə də birbaşa dəxli olacaq. Cavab neqativ olsa, bu, o anlama gələcək ki, Rusiya həqiqətən münaqişənin həllində heç bir ciddi dönüşdə maraqlı deyil və status-kvonun qalmasını istəyir...

***

Beləcə, Azərbaycan ətrafında olduqca həssas və maraqlı bir situasiya yaranıb. Rəsmi Bakı indi hər iki konfliktin episentrində dayanmış kimidir - həm Qarabağ, həm də Ankara-Moskva barışığı məsələsində onun rolu və məsuliyyəti indi heç vaxt olmadığı qədər artıb.

Söz yox ki, Azərbaycan strateji müttəfiqi ilə strateji tərəfdaşını barışdıra bilsə, Qarabağ məsələsi bundan yalnız qazana bilər. Ən azı ona görə ki, münaqişənin həlli üçün o zaman xeyli dərəcədə münbit siyasi zəmin və etimad atmosferi yaranacaq, işğalçı Ermənistanın Moskva üçün hərbi-strateji önəmi azalacaq.

Kəsəsi, mövcud şərtlər fonunda Qarabağa dair böyük sülh anlaşması Rusiya-Türkiyə əlaqələrinin bərpasından sonra daha real görünür.

**P.S.** *Yazı hazırlanarkən Ərdoğanın məktubuna Kremlin ilkin reaksiyası bəlli olub. Prezident V.Putin yox, onun köməkçisi Dmitri Peskov deyib ki, Ərdoğanın Putinə ünvanlandığı məktub cavab tələb etmir: "Bu, milli bayramlarla əlaqədar göndərilən ənənəvi protokol məktubudur. Beynəlxalq münasibətlərdə bu adi təcrübədir. Adəti üzrə, belə məktublara cavab verilmir. Həmin məktubda təəssüf ki, məzmun etibarilə başqa məqamlar yox idi". Qalır Putinin özəl reaksiyası...*

❑ **Analitik xidmət**

# Qarabağ illərdən günlərədək...



**Hüseynbala SƏLİMOV**

**Oturub-durub özümdən soruşuram ki, görən, bu illər ərzində necə dözmüşük Qarabağsızlığa? Zarafat deyil, az qala, üçüncü on illik də tamamlanmaq üzrədi. Bunun da düz 23 ili indiki hakimiyyətin payınadır...**

Düzdür, keçmiş sovet düşərgəsində bütün etnik-münaqişələr həll olunmamış qalıb - Azərbaycanda da, Gürcüstanda da, elə Moldovada da eyni vəziyyətdir, hər şey olduğu kimidir...

Amma oralarda çox siyasi sular axıb, çox siyasi küləklər əsib. Bir xeyli hakimiyyətlər dəyişib. Yalnız Azərbaycanda çox sürəkli proseslərdən sonra möhkəm, bir az da üzücü siyasi stabillik bərqərar oldu - bir siyasi hakimiyyət 23 ildir ki, siyasi olimpi heç kimlə bölüşmür...

Düzdür, burada iki detal var. Birincisi, demirik ki, Moldovada, Gürcüstanda hakimiyyətlərin dəyişməsi münaqişələrin həll olunmasına səbəb oldu. Yox, belə olmadı...

İkincisi, prinsipcə, heç kim deyə bilməz ki, Azərbaycanda başqa bir hakimiyyət olsaydı, Qarabağ problemi həll olunacaqdı. Yox, bunu da demək olmur...

Amma məsuliyyət məsələsi var. Siyasətçi, dövlət məmuru biləndə ki, ona verilən mandatın bəlli bir ömrü var və o, zaman baxımından heç də nəhayətsiz deyil, daha məsuliyyətli olur...

Məsuliyyətin artıqlığı ona gətirərdi ki, ölkənin müdafiə potensialı daha güclü olar, münaqişənin həlli üçün daha artıq səy edilərdi...

Nə isə... Necə deyər, ola bilərdi, amma olmadı! Ona görə də bu gün olanlarla kifayətlənmək lazım gəlir. Fəqət, 23 ildir, deyilir ki, Azərbaycan ordusu regionun ən güclü ordusu, dövlətin özü isə ən güclü dövlətdir...

Bunlar çox yaxşıdır. Qürur hissi ilə də razılaşırıq. Amma bütün bu deyilənlərin, söylənilən vədlərin təcrübədə təsdiqini tapmasına ehtiyac var. Yoxsa özümüz deyib, özümüz eşidəcəyik...

Aprel ayında ilk dəfə ümid qığılcımı yarandı. İlk dəfə hiss etdik ki, hərb teatrında da nəsə edə bilərik...

Amma müəyyən səbəblərdən münaqişəni həll etmək üçün hərbi təzyiq cəhdləri ardıcıl və uzunmüddətli olmadı, yenə də nisbi və bir az da üzücü atəşkəs rejimi bərqərar oldu...

Ümidlər bir daha siyasi və diplomatik görüşlərə bağlandı. Onlardan biri baş tutub. İndi növbəti görüşü gözləyirik...

Bir şey alınmazsa, nə olacaq?.. Yenə də üzücü "atəşkəs" rejimini yaşamaq lazım gələcəkmi? Yox, bu, o demək deyil ki, hərbi qarşıdurma tərəfdarıyıq. Amma müəyyən limit olmalıdır. Bəlkə də bu limit çoxdan bitib. Ona görə də ölkədə müxtəlif çağırışlar eşidilir. Kimi deyir ki, bu danışıqlar da alınmazsa, Azərbaycan qəti qərar qəbul etməlidir. Kimi də ərz edir ki, Azərbaycan Ermənistana konkret vaxt verməlidir...

Nə demək olardı? Bilirsiniz, məsələ bundadır ki, diplomatiya dövlətin hər hansı problemin həlli üçün nəzərdə tutduğu planlara zəmin yaratmalı və onlar üçün əlverişli fon formalaşdırmalıdır. Təbii ki, bunun özü üçün ən əvvəl hakimiyyətin müəyyən planları olmalıdır! Onlar olmayanda diplomatiya da məqsədsiz, orientirsiz, qarmaqarışıq bir söz yığınına çevrilir...

Amma biz bu planı görmürük... Təsəvvür edin, Rusiyanı Azərbaycanın dostu və strateji müttəfiqi adlandırırıq. Amma Rusiyanın sayəsində bu günə qədər nələr olub?

Biz Rusiyadan silahı valyuta ilə, Ermənistansa hədiyyə kimi alır. İki ölkə müxtəlif üsullarla əldə etdikləri silahları biri - birinə qarşı işlədir və təzədən silah almaq üçün Rusiyaya üz tutur... Beləcə, on illərdir ki, hər şey dövr edir...

Rusiya da Azərbaycana gələndə cibini, Ermənistana gəldikdə isə geosiyasi planlarını yada salır - yenə də tərəflərdən birinə silahı satır, o birisinə də hədiyyə edir!..

Niyə belə etdiklərini soruşanda da qayıdırlar ki, Ermənistan hərbi müttəfiqimiz və partnyorumuzdur, ona görə də bölgədə hərbi balansı gözləməyə məcburuq...

Elə bu səbəbdən də danışıqlar bu dəfə də alınmazsa nələrin baş verəcəyini deməyə çətinlik çəkirəm... Həm də gərək, özümüzü izafi ümidlərlə yükləməyək. Böyük hesabla ciddi bir şey olmayacaq, çünki hələ danışıqların birinci raundu ərəfəsində Ermənistanın xarici işlər naziri E.Nalbandyan demişdi ki, bu gün imzalanmaq üçün ortalıqda heç bir sənəd yoxdur...

Ötən görüşdən də elə bir böyük müddət keçməyib ki, imza atmaq üçün nəyinsə peyda olduğunu düşünəsən.

Həm də elə ötən görüşün özündə də prinsipial bir irəliləyiş olmamışdı, görüş o qədər nəticəsiz keçmişdi ki, diplomatlar bunu ört-basdır etmək üçün "etimad görüşü" adını vermişdilər ona...

Daha nə demək olardı? Gəlin bir az tələsməyək. Görək, bu dəfə nə olur? Yazmağa, tənqid və təftiş etməyə vaxtımız olacaq...

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016

**"Onsuz da hər işimiz kreditlədir. Heç nə olmaz, istirahəti də kreditlə edərik. Ayda bir kredit də istirahət üçün ödənər. Biri artıq, biri əskik". 3 uşaq atası Vaqif Salmanov hesab edir ki, mükəlləfiyyətlər və ağır şərtlər altında keçən gündəlik həyatı ildə heç olmasa bir həftəlik də olsa yüngülləşdirmək lazımdır. Nəyin bahasına olursa-olsun. Onun fikrincə, əgər il boyunca bu istirahət planı üçün kənara pul qoyulmayıbsa, son anda kredit istirahət variantından istifadə etmək mümkündür.**

# 7 gün istirahət elə, 12 ay pulunu ödə...

## Kreditli istirahət barədə bilmədiklərimiz...

Yayın gəlişi ilə insanların istirahət planları qurması da başlanıb. Pul az, orqanizm yorğun, istirahət guşələrindəki qiymətlər isə baha... olunca insan istər-istəməz borc altına girmək istəyir. Təbii ki, heç də hamı yox. Amma hazırda turizm şirkətlərinin ən çox reklam etdiyi şüar budur - indi istirahət et, sonra ödə. Bu, elə qonşu Türkiyədəki kampaniyalarda da qarşımıza çıxır. Amma "Yeni Müsavat" Azərbaycandakı kredit istirahət şərtləri ilə maraqlandı və ortaya maraqlı nəticələr çıxdı.

Ümumiyyətlə, öncə ondan başlayaq ki, səyahət kreditləri əsasən az inkişaf etmiş ölkələr üçün keçərlidir. Çünki vətəndaşın maddi təminatı normal səviyyədədirsə, o, il boyunca ən azı iki dəfə - yay və qış istirahətini lazımi səviyyədə təşkil edə bilir. Amma Azərbaycan kimi ölkələrdə səyahət kreditinin faizi yüksək olur. Nəzərə almaq lazımdır ki, insan səyahətə getdikdə o, tur paketin 30 faizini öncədən ödəyir. Amma onu 12 aya böləndə, hər ay minimum 70-100 manat ödəmək lazım gəlir. Bu isə insan üçün psixoloji diskomfort yaradır.

2005-ci ildən etibarən aparıcı və nümunəvi banklar turizm kreditlərinə başladılar, lakin sonra bu da istehlak kreditinə çevrildi. Bu zaman turpaketin 30 faizi ilkin olaraq, qalanı isə il ərzində ödənilirdi. İstirahət məkanının rezerv sənədləri, biletlər və qaimə əsasında təqdim olunurdu. Ekspertlər hesab edir ki, turizm təkliflərinin bu növü məqbul olsa da, faiz dərəcələri illik 12-15 faizi aşmamalıdır.

### Mamed Əliyev: "Bu sistem müştəriyə və banka sərfəlidir, turizm şirkəti hər iki halda eyni məbləği alır"

**"Fly Travel" şirkətinin rəhbəri Mamed Əliyev bizə açıqlamasında bildirdi ki, onlarda da kreditlə səyahət mövcuddur. Müsahibimiz səyahətin bu növünün olduqca sərfəli olduğunu dedi:** "Hesab edək ki, turun qiyməti 2 min AZN-dir. Müştəriyə sənəd veririk. Pulu da biz ayırırıq. Amma bank vasitəsilə alırıq. Etibarlı müştərilərimiz əsasən belə turpaketləri mart ayında alır, avqusta qədər ödəyirlər. İlkin ödəmə isə ümumi turpaketin 30 faizi olur. Faizlər də böyük deyil. Cəmi 16 faiz. Müştəri tutaq ki, 1000 manatlıq turpaketə 1160 manat ödəyir".

**Müsahibimiz dedi ki, turizm firması üçün müştərinin turpaketi kreditlə və ya nağd şəkildə ödəməsinin fərqi yoxdur. Onun sözlərinə görə, əgər tur 2 min manata satılıbsa, şirkətin balansına da o məbləğdə pul gəlir:** "Amma banka sərf edir. Çünki faiz onlara çatır. İmkanı olmayan müştəriyə də bu sistem sərf edir. Çünki ayda hesab edək ki, 93 manat pul ödəyir. Bəlkə də çox gözünə görünmür".

### Banklar firmalarla əlbir işləyir və... ortaya belə mənzərə çıxır

Bir neçə il öncəyə qədər bəzi banklar birbaşa bu təkliflərlə çıxış edirdilər. Onlar səyahət həvəsində olanlara ilkin ödəniş 20% olmaqla, 3000 manatadək kredit təklif edirdi. İstirahətdən gəldikdən sonra vətəndaş illik 26% olmaqla, 18 ay ərzində kredit məbləğini ödəməli olur. Bankların bu kredit növündə vətəndaşlar üçün "girovsuz" şərti qeyd edilsə də, zamin tələb olunur.



Ümumiyyətlə, bu sayaq kredit təklif edən banklar kredit ərizəsi, ərizəçinin, zaminlərin şəxsiyyət vəsiqəsi, borcalanın iş yerindən arayış, əgər biznes gəlirlidirsə-VÖEN, partnyor tərəfindən verilmiş qaimə-arayış (satış sənədi) tələb edirlər. Bundan başqa, banklar yalnız aralarında müqavilə olan turizm şirkətləri ilə səyahətə gedən vətəndaşlara səyahət krediti təklif edirlər. Kreditlərin şərtlərinə əsasən, yalnız turizm şirkətlərinin təqdim etdiyi turpaketlərdən istifadə edən vətəndaşlar bu krediti ala bilərlər. Misal üçün, əgər vətəndaş özü vizanı, aviabileti, hoteli bron edirsə, həmin şəxs səyahət krediti götürə bilmir.

### "Onsuz da ay boyu kreditlər bizi boğur, ayağımızı yorğanımıza görə uzadaq"

"Kreditli istirahət insan üçün əlavə yükdür. Onsuz da bütün həyatımızı kreditlər idarə edir. İlin 12 ayını yayda etdiyim istirahətin cəriməsini ödəməklə keçirmək istəmirəm. Xəstəliyə, ev təmirinə, maşın almağa, ev almağa görə kreditə girmək olar. Amma 7 gün gedib hardasa günəşin altında uzanacamsa, buna görə borc altına girmək istəmirəm. Nə vaxt əlimə pul düşər, onda gedərəm. Əlavə yük, cərimə ödəmək fikrim yoxdur".

**Bunu isə mövzu ilə bağlı rəyini öyrəndiyimiz Arzu Hətəmova dedi. Onun sözlərinə görə, hazırda öhdəsində iki kredit və bir lotereya var. Bundan başqa, dərs ili boyunca uşaqlarının hazırlıq, taksi məsrəfləri də olur. Bu isə ayda 250 AZN-ə yaxın məcburi ödəniş deməkdir:** "Bu xərcin üzərinə yayda etdiyim 7 günlük istirahətin pulu da gəlsə, gərək yeyib içməyək. Hələ bilmək olmaz ki, mən o istirahətdən zövq alacam, uşaqlarım bəyənəcək ya yox. Hesab edirəm ki, insan ayağını yorğanına görə uzatmalıdır. Uzada bilmirsə, ən azı belə xərcin altına girməməlidir".

### Natiq Cəfərli: "Sonda hesablayanda görürsən ki, maya dəyərindən baha başa gəlir"

**Ekspert Natiq Cəfərli hesab edir ki, əslində insanın maddi durumu imkan verirsə, kreditsiz istirahətdən yararlanması daha yaxşı olar. Müsahibimizin sözlərinə görə, bu, daha ucuz başa gəlir:** "Amma görünən odur ki, Azərbaycanda vətəndaşların bir qismi nağd şəkildə, vəsaitin çatışmazlığına görə istirahət kreditindən istifadə edir. Bunun da üstünə çox böyük faiz dərəcələri gələndə ciddi məbləğlərdən danışmış oluruq".

**Müsahibimiz dedi ki, insanlar çox vaxt aylıq ödənişin böyük olmadığını görüb bununla razılaşırlar. Amma sonda ümumi istirahət paketinin dəyərini hesablayanda bunun mayasından çox baha başa gəldiyi üzə çıxır:** "Azərbaycan vətəndaşları buna çox fikir vermir, həmən kredit sözünü eşidib razılaşırlar. Heç hesablamırlar ki, buna əlavə bir istirahətin pulu qədər ödəyirlər. Amma hesab edirəm ki, hələ də buna tələbat varsa, bu sistemlə işləyən turizm şirkətləri olacaq və vətəndaşlar da bundan faydalanacaqlar".

Sonda.... Azərbaycan insanı üçün hər şeyin kreditləşdiyi bir zamanda istirahəti də bu şərtlərlə həyata keçirmək istəmələri anlaşılandır. Ağır sosial yüklərin altında əzilən vətəndaşın "bari 1 həftə...." istəyi də il boyu onun boynundan asılan ağır zəncir olacaqsa... Kim deyir ki, onun adı istirahətdir, zövqdür, əyləncədir?

❑ **Sevinc TELMANQIZI**

# Problemli kreditlər artır - aidiyyəti qurumlar gözləmə mövqeyindədir...

## Ekspertlər isə məsələnin ciddiliyini vurğulayır və vətəndaşlar üçün güzəşt istəyirlər...

**Ölkədə problemli kreditlərin həcmi artmaqda davam edir. Mayın 1-də vaxtı keçmiş kreditlərin 1 milyard 381,3 milyon manat olduğu bildirilir. Mərkəzi Bankın (MB) açıqladığı statistikaya görə, mart ayı ilə müqayisədə apreldə problemli kreditlərin həcmi 54,8 milyon manat və ya 4,13 faiz artıb. Manatla 9 milyard 723,1 milyon kredit verilib. Bunun da 726,2 milyon manatının ödəmə vaxtı gecikir. Xarici valyutada da 9 milyard 35,6 milyon manatlıq kredit verildiyi qeyd edilir. Xarici valyutada problemli kreditlərin həcmi 655,1 milyon manat göstərilir.**



Müstəqil ekspertlər və beynəlxalq reytinq agentlikləri vaxtı keçmiş kreditlərin daha çox olduğunu qeyd edirlər. Məsələn, "Moody's" beynəlxalq reytinq agentliyi hesab edir ki, Azərbaycan banklarında bu, kredit portfelinin 20 faizini təşkil edir. MB-nin məlumatında isə problemli kreditlər 7,4 faiz göstərilir.

**Ekspert Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, ödənilə bilməyən kreditlərin həcmi rəsmi rəqəmlərdən xeyli çoxdur: "Problemli kreditlər deyilləndən daha çoxdur, bəzi banklarda bu cür kreditlərin həcmi 40-50 faizdir. Hətta bizdə məlumatlar var ki, bəzi banklarda bu rəqəm 60 faizə yaxındır. Bu, bütünlüklə bank sistemi üçün problemdir. Ona görə biz dəfələrlə mətbuatda təkliflər verdik ki, bu problem həll olunmalıdır. Bu problemi yaradan başlıca səbəb xarici valyutada götürülmüş, bu günə qədər qaytarılmayan kreditlərdir. Devalvasiya nəticəsində vətəndaşın aldığı borc iki dəfə artıb, vətəndaş bunu ödəmək iqtidarında deyil. Problemli kreditlərin həcmi getdikcə artır. Bu sahədə çox ciddi problemlər var. Ona görə nə qədər gec deyil, Mərkəzi Bankın rəhbərliyi, Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbərliyi oturub düşünməli və hökumət qarşısında çox ciddi, əsaslandırılmış təkliflərlə çıxış etməlidirlər. Bu problem çözülməsə, vəziyyət daha da pisləşəcək. Bank sistemi faktiki olaraq iflic vəziyyətindədir, özünü tamamilə itirib. Məsələnin həllinin başqa yolu yoxdur. Biz dəfələrlə təklif etdik, yenə edirik. Bu məsələnin həllinin yeganə düzgün yolu Mərkəzi Bankın daxili borclanmaya getməklə xarici valyutada götürülən kreditlərin məzənnə fərqini banklara ödəməlidir, bu, ən yaxşı yoldur. Banklar da eyni zamanda insanlara, vətəndaşlara ciddi şəkildə güzəştə gedərək məzənnə fərqini aradan qaldırmalıdır".

Qeyd edək ki, problemli kreditlərin həcminin artmasında devalvasiyanın rolu danılmazdır. Xüsusilə dollarla kreditlərin ödənişində çətinliklər var. Belə kreditlərə güzəştlər müzakirə olunsa da, heç bir addım atılmayıb. Ən son Maliyyə Bazarlarına Nəzarət Palatasının sədri Rüfət Aslanlı 10 min dollaradək kreditlərə kompensasiyanın ödənilməsinin müzakirə edilə biləcəyini söyləyib. Daha öncə Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov səslənən məbləğdən 2 dəfə az- 5 min dollaradək kreditlərə güzəşt olacağı barədə ümid yaratmışdı.

**Ekspert Vüqar Bayramov isə qeyd edir ki, Mərkəzi Bank hələ də heç bir addım atmayıb:** "Mərkəzi Bank tərəddüd edir və bu tərəddüd bank sektoruna ciddi çətinlik törətməkdədir". **Ekspertin sözlərinə görə, uzun müddət yüksək faizlərdən bəhrələnən banklar da faizləri endirmək əvəzinə daha çox inzibati metodlardan faydalanmağa çalışır:** "Bununla problemi daha da dərinləşdirirlər. Nəticədə borcluların bank kreditlərini ödəməməsi getdikcə adiləşir. Devalvasiyadan sonra manatla xərcləri artan vətəndaşlara nə Mərkəzi Bankın, nə də yüksək faizlərini hələ də saxlayan bankların güzəştə getməməsi əksər borcluların ödəmə qabiliyyətini pisləşdirib. Əslində baş bank kreditlərə kompensasiya ödəməklə deyil, ödəməməklə maliyyə intizamının pozulmasına imkan yaratdı".

Qeyd edək ki, əksər ekspertlərin fikrincə, kompensasiya mexanizmi zamanında tətbiq olunmalı idi. Belə olardısa, problemli kreditlərin həcmi bu qədər artmazdı.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi






# Rusiyanın Qarabağ məsələsini "təkbaşına" həll etmək planı

## Prezidentlərin Sankt-Peterburq görüşündə ATƏT "ofsayd"da saxlanıldı; "Putinin çantası"nda nə var, Azərbaycan və Ermənistan prezidentlərinə nə təklif ediləcək?

**Prezidentlərin Sankt-Peterburq görüşü ərəfəsində Azərbaycan və Ermənistanın müdafiə nazirləri Moskvada, rusiyalı həmkarları ilə bir araya gəliblər. Yayılan məlumatlardan belə aydın olur ki, ordu rəhbərliyinin üçtərəfli görüşü olmayıb.**

Rəsmi məlumata görə, Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov iyunun 15-də Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak etmək üçün Rusiya paytaxtına gedib. İclasda MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektlərinin müzakirə edilməsi də planlaşdırılır.

Diqqətçəkən məqam budur ki, müdafiə naziri Rusiyaya getməzdən əvvəl nazir müavinləri, nazirliyin baş idarə və idarə rəisləri, Silahlı Qüvvələrin qoşun növü komandanları, eləcə də birlik komandirlərinin iştirakı ilə geniş tərkibdə xidməti müşavirə keçirilmişdi. Müşavirədə Azərbaycan prezidenti İlham Əliyevin tapşırığına əsasən qoşunların döyüşə hazırlıq səviyyəsinin və idarəetmə orqanlarının fəaliyyətinin hərtərəfli yoxlanılması, döyüş və qarşılıqlı uzlaşmanı təmin edən müxtəlif səviyyəli, o cümlədən hərbi texnikanın və bütün qoşun növlərinin tətbiqi ilə operativ-taktiki təlimlərin keçirilməsinə hazırlıq və qarşıda duran digər tapşırıqlar müzakirə olunmuşdu.

Düşmənin istənilən an təxribat törədə biləcəyi ordu rəhbərliyinin də diqqətindədir. Ancaq hazırkı situasiyada Rusiyanın tutduğu mövqe maraq doğurur. Moskva həm bölgədəki proseslərin nəzarətdən çıxmasını istəmir, həm də tərəflərin hər ikisi ilə balanslı münasibətini qoruyub-saxlamaq xətrinə onların hər ikisini silahlandırmağa üstünlük verir.

Rusiya müdafiə naziri Sergey Şoyqu Azərbaycanın müdafiə naziri Z.Həsənovla görüşü zamanı iki ölkə arasında hərbi-texniki sahədəki əməkdaşlığın strateji xarakter daşıdığını söyləyib (APA). Azərbaycanlı həmkarı ilə görüşdən şad olduğunu söyləyən S. Şoyqu bildirib ki, iki ölkə arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlıq yüksək səviyyədədir. Z. Həsənov da Rusiya və Azərbaycan arasında hərbi sahədə əməkdaşlığı yüksək dəyərləndirib. O, Rusiya müdafiə nazirini Azərbaycana səfərə dəvət edib.

**Eyni gündə Şoyqu Ermənistan müdafiə naziri Seyran Ohanyanı qəbul edib. Görüşdə Rusiyanın Ermənistanla strateji əməkdaşlığını bundan sonra da davam etdirəcəyini bildirib:** "Biz bundan sonra da Ermənistanla strateji əməkdaşlığı davam etdirəcəyik". S.Şoyqunun sözlərinə görə, Moskva və İrəvan bütün istiqamətlərdə əməkdaşlığı davam etdirəcək. Bura təhsil sahəsində əməkdaşlıq da daxildir. "Hazırda çox sayda erməni hərbçi Rusiyanın hərbi məktəblərində təhsil alır. Bu il isə 200 zabit bu hərbi məktəblərdə təhsilə başlayacaq" - rusiyalı hərbi nazir deyib.

**Rusiyanın bu davranışları fonunda isə Ermənistanda etirazlar səngimir. "Rusiya Ermənistanla 200 milyonluq silah satışı müqaviləsini tam şəkildə reallaşdırmaq niyyətində deyil". Ermənistanın "İrs" partiyasının parlament fraksiyasının rəhbəri Zarui Postancyan belə deyib (virtualaz.org). Deputatın sözlərinə görə, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olmasına baxmayaraq, regionda güc balansını bərpa etmək istəmir:** "Rəsmi Moskva Azərbaycana milyard dollar məbləğində silah satmaqla bu balansı pozub". Erməni deputat hesab edir ki, rəsmi Moskva Bakı ilə sıx əməkdaşlıq etdiyi, Azərbaycanın silahlı qüvvələrini gücləndirdiyi üçün Rusiya hərbçiləri Ermənistandan çıxarılmalıdır. Erməni deputat Rusiya Ermənistanın hava məkanını da öz nəzarətinə alandan sonra bunu deyirsə, deməli, artıq çox gecdir...

***

Bu arada Sankt-Peterburq görüşü ilə bağlı isə ilginc məqam ortaya çıxıb. Məlum olub ki, Vyana görüşündən fərqli olaraq, Rusiyanın ev sahibliyi edəcək görüşdə ATƏT iştirak etməyəcək. ATƏT-in mətbuatla əlaqələr şöbəsinin rəhbəri vəzifəsini icra edən Nataşa Radjakoviç də təsdiqləyib ki, qurum Sank-Peterburqda Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin üçtərəfli görüşünə hazırlıqda iştirak etmir. ATƏT rəsmisi bunun səbəblərini açıqlamayıb. N. Radjakoviç "ATƏT Sankt-Peterburqda Dağlıq Qarabağ üzrə sammitin təşkilinə cəlb edilməyib. Biz bu məsələni şərh edə bilmərik. Bildiyimiz kimi, bu görüş Rusiya tərəfinin təşəbbüsü ilə çağırılır. Bu barədə sualları Rusiya hakimiyyətinə vermək lazımdır" - deməklə kifayətlənib. ATƏT-in Minsk Qrupu həmsədrlərinin də Sankt-Peterburq görüşündə hansı formada iştirakı hələlik bəlli deyil.

Qeyd edək ki, iyunun 20-də Sankt-Peterburqda keçiriləcək Rusiya, Azərbaycan, Ermənistan prezidentlərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı görüşündən əvvəl Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan dövlət başçısı Serj Sərkisyanla ayrı-ayrılıqda görüşəcək. Daha sonra isə üçlükdə görüş keçiriləcək. Rusiya prezidentinin köməkçisi Yuri Uşakov da bu məlumatı təsdiqləyib.



**Elxan Şahinoğlu:** "Kreml Ermənistanı Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa məcbur etmək istəmir"

Xatırladaq ki, bundan əvvəl Qarabağ münaqişəsinə dair danışıqların Rusiya raundunun iyunun 26-da baş tutacağı barədə erməni mənbələr məlumat yaymışdı. Yuri Uşakov isə deyib ki, Azərbaycan və Ermənistan prezidentlərinin görüşü Sankt-Peterburqda beynəlxalq iqtisadi forum çərçivəsində baş tutacaq. "Təbii ki, bizim tərəfimizdən münaqişənin nizamlanması üçün tərəflərə fəal təsir cəhdləri ediləcək"-Putinin köməkçisi bildirib.

Almaniyanın sədrliyi dövründə ATƏT-in Qarabağ danışıqlarında mühüm rol oynayacağı barədə gözləntilər isə faktiki olaraq özünü doğrultmadı və bunu təsdiqləyir. Əslində Almaniya kansleri Angela Merkelin Azərbaycan prezidenti ilə görüşündə Qarabağın açarının Rusiyada olduğu barədə bəyanatından sonra ATƏT-in mövqeyinin zəifldiyi barədə ehtimallar artmışdı. Bu, həm də belə yanaşmalara gətirib çıxarmışdı ki, Qarabağ məsələsinin həlli ilə bağlı Rusiya-Qərb rəqabətində balans birincinin xeyrinə dəyişib, ancaq Kremlin həll prosesində prinsipial mövqe tutacağı şübhələri də kifayət qədərdir. Virtualaz.org-un yazdığına görə, Putin ABŞ-ı Qarabağ nizamlamasından kənarlaşdırır. Belə ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair uzun müddətdən bəri dayanmış danışıqlar Qərbin iştirakı olmadan bərpa edilir.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, Rusiya ərazisində keçirilən əvvəlki görüşlərə də adətən digər iki həmsədrin təmsilçiləri dəvət olunmur:** "Sadəcə, Azərbaycan və Ermənistan prezidentlərinin görüşündən sonra digər həmsədrlər görüşün təfərrüatları haqqında məlumatlandırılır. Əslində Azərbaycan və Ermənistan prezidentlərinin görüşü Parisdə nəzərdə tutulmuşdu. Ancaq daha sonra tərəflər Sankt-Peterburqa üstünlük verdilər. Bunun iki səbəbi var: Birinci səbəbi odur ki, Sankt-Peterburqda hər ilin iyun ayında beynəlxalq iqtisadi forum keçirilir və foruma Azərbaycan və Ermənistan prezidentləri də dəvətlidirlər. Ona görə prezidentlərin görüşünü məhz bu forum çərçivəsində təşkil etmək mümkündür. Kreml bununla Sankt-Peterburq forumuna diqqəti daha çox artırmaq istəyir. Yəni Sankt-Peterburq forumunda yalnız iqtisadi məsələlər deyil, dövlətlərarası münaqişələr də müzakirə oluna bilər. İkinci səbəb odur ki, Dağlıq Qarabağ münaqişəsinin həllində əsas vasitəçi onsuz da Rusiyadır. Yəni Kreml istəsə, münaqişə çox qısa zamanda həll oluna bilər, istəməsə isə tam əksinə, münaqişənin həlli illərlə uzana bilər".

**E.Şahinoğlu bir məqama da diqqət çəkdi:** "Təsadüfi deyil ki, Almaniyanın kansleri Angela Merkel də Azərbaycan prezidenti İlham Əliyevlə Berlində keçirdiyi birgə mətbuat konfransında münaqişənin həllində Rusiyanı "açar dövlət" adlandırdı. Aprel ayında atəşkəs də məhz Rusiya prezidentinin vasitəçiliyi ilə əldə olunmuşdu. Bu faktor da beynəlxalq aləmə mesaj idi ki, Rusiya Cənubi Qafqazda güclü alətlərə malikdir. Danışıqlar mərhələsini də Kreml nəzarətdə saxlamaq istəyir. Buna baxmayaraq, Sankt-Peterburqdakı görüş və müzakirələrdən ciddi nəticə gözləmək problematikdir. Çünki Kreml Ermənistan hakimiyyətini Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa məcbur etmək istəmir. Bunsuz isə münaqişəni sülh yolu ilə həll etmək mümkün olmayacaq".

Danışıqların Rusiya raundunda masa üzərində hansı sənədin olacağı da əsas suallardandır. İndiyədək barəsində danışılan "Kazan sənədi"nin, yaxud "Lavrov variantları"nın qəbulolunmazlığı barədə hər iki münaqişə tərəfindən fikirlər səslənsə də, Kreml son variantını ictimailəşdirməyib. Rusiya rəsmiləri Lavrovun çantasının heç zaman boş olmadığını desələr də, hələlik "Putinin çanta"sından bəhs edən olmayıb.

**E.Şahinoğlu isə nikbin deyil:** "Apreldən bu yana danışıqlarda irəriləyiş əldə olunmayıb, Minsk Qrupu həmsədrlərinin isə yeni təklifləri yoxdur. Odur ki, belə şəraitdə Sankt-Peterburq görüşü münaqişənin həllinə təkan verməyəcək. Putin uzaqbaşı Azərbaycan və Ermənistan prezidentlərinə yenidən Kazan prinsiplərini təklif edə bilər. Bu prinsiplərin yerinə yetirilməsi ilk baxışdan Azərbaycanın xeyrinə olsa da, təkliflər içərisində Dağlıq Qarabağda keçiriləcək referendum tarixinin yer alması rəsmi Bakının bu plana razılaşmasını çətinləşdirir".

**Bəs Putin prezidentlərlə niyə ayrılıqda görüşməyə qərar verib? E.Şahinoğlu:** "Bu, Rusiya prezidentinə ona görə lazımdır ki, hər iki prezidentin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyini özü üçün dəqiq müəyyənləşdirsin, yəni konkret olaraq Bakı və İrəvan nə istəyir? Çünki üçtərəfli görüşdə tərəflərdən hər hansı biri həm təklifləri, həm də gözləntilərini tam söyləməyə də bilər. Üçtərəfli görüş daha diplomatik mahiyyət daşıyır. İkitərəfli görüşdə isə həm Azərbaycan, həm də Ermənistan prezidentləri vasitəçiyə - Rusiya prezidentinə daha çox məlumat vermək imkanı qazanırlar. Bundan sonra Putin üçün üçtərəfli görüş formatında danışıqları davam etdirmək daha rahat olur".

Hələlik rəsmi Bakı Sank-Peterburq görüşündən gözləntilərini və ATƏT-in danışıqlardan kənarda qalmasının səbəblərini açıqlamayıb. Görünən budur ki, Rusiya "kəssə hər kəs tökülən qan izini, qurtaran dahi odur yer üzünü" yanaşmasına üstünlük verərək apreldə əldə etdiyi atəşkəsin ardınca danışıqlarda da yeganə söz sahibi olmağa üstünlük verir. Ancaq bu, çox nikbin gözləntidir. Hər halda, 20 iyuna sayılı günlər qalıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# Qız qızıla dönüb, yox xəbəri oğlanların...



## Azərbaycan demoqrafik problemin astanasında; qızların sayının azalması qarışıq ailələrin sayının artacağından xəbər verir

**"İndi neyniyəcəksən, uşağı doğacaqsan, yoxsa..." O, gözləri dolmuş halda sualın ardını eşitməmək üçün USM otağının qarşısını tərk edir. Bakıda fəaliyyət göstərən qadın məsləhətxanalarından birində apardığımız müşahidə əsasında şahidi oluruq ki, bu artıq 2 saatın içərisində övladını dünyaya gətirib-gətirməmək seçimi qarşısında qalan 7-ci anadır.**

Son illər Azərbaycanda yeni doğulan oğlanların sayı qızların sayından xeyli çoxdur və bunun səbəblərindən biri də inkişaf etmiş texnologiya nəticəsində dölün cinsinin əvvəlcədən müəyyənləşdirilməsi, selektiv abortların sayının artmasıdır. Əksər ailələrdə ikinci qız uşağı arzulanan olmur. Ailələr çox az hallarda bilərəkdən ikinci qızın dünyaya gəlməsinə razı olurlar. Əksəriyyət isə qızı elə ana bətnindəcə məhv edir.

**Qadağa ilə problemin həllinə nail olmaq mümkün deyil**

Burada bir məqamı qeyd edək ki, uşaqlar arasında cins nisbətinin pozulması problemi təkcə Azərbaycanda yox, bütün dünyada mövcuddur. Belə hallara əvvəllər yalnız Cənubi Asiyada rast gəlinib. İndi isə problem Cənubi Qafqaz və bəzi Şərqi Avropa ölkələrini də əhatə edir. Hələ qədimdə ərəb dünyasında qız uşağı sahibi olmaq "utanc verən bir vəziyyət" kimi qəbul edildiyindən, qız uşaqları ya yeni doğulanda, ya da çox böyümədən diri-diri torpağa basdırılırdı. Həmin insanları isə adətən "cahil, duyğusuz, vəhşi çöl insanları" adlandırırdılar. Müasir dövrdə isə ana bətnindən körpələr vaxtsız alınanda belə bir fikir söylənir ki, "bu, istənilməyən hamiləlikdir".

BMT-nin Əhali Fondunun müşaviri Fərid Babayevin sözlərinə görə, normal halda hər 100 qız uşağına 106 oğlan doğulmalıdır. Azərbaycanda da 1975-1980-ci illərə qədər bu nisbət pozulmayıb. Lakin Dövlət Statistika Komitəsinin məlumatına görə, 1998-ci ildə 100 qız uşağına 118 oğlan doğulub və bu nisbət artmaqda davam edib. 2011-2015-cı illərdə rəqəmlər nisbətən tənzimlənib və ötən ilin nəticələrinə görə, ölkədə 100 qız uşağına 116 oğlan doğulub. Yəni oğlanlar qızlardan 10-11 faiz çoxdur. Bu nisbətə görə Azərbaycan dünyada Çindən sonra 2-ci yeri tutur. Çində bu rəqəm 100-118-dir.

2012-ci ildə BMT-nin Əhali Fondunun Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Hacəttəpə Universiteti ilə birlikdə apardığı araşdırmaların nəticələrinə görə, bu tendensiya davam edərsə, 2050-ci ilə qədər demoqrafik maskulizasiya (kişilərin sayının artması) yarana bilər. Mütəxəssis problemi aradan qaldırmaq üçün ilk növbədə bütün aidiyyəti qurumların, dövlət strukturlarının onun həllinə cəlb edilməli olduğunu da deyir. Onun fikrincə, eyni zamanda cəmiyyət, KİV, ictimaiyyət nümayəndələri bu istiqamətdə təbliğat kampaniyalarına cəlb olunmalıdır, çünki qadağa ilə problemin həllinə nail olmaq mümkün deyil.

**Demoqrafiya özünü təhsildə də göstərir**

Təhsil Nazirliyindən bugünlərdə verilən məlumatda bildirilir ki, 2015-2016-cı tədris ilində ümumtəhsil məktəblərinin IX siniflərini 111217 nəfər bitirəcək ki, bunun 51010 nəfəri qız, 60207 nəfəri oğlandır. Eyni zamanda bu il XI sinifləri bitirəcək 89325 nəfər şagirdin 39643 nəfəri qız, 49682 nəfəri oğlandır.

Ölkədə yeni doğulan uşaqların sayı da onu göstərir ki, oğlan uşaqları üstünlük təşkil edir. Dövlət Statistika Komitəsinin rəqəmlərinə əsaslansaq, 2012-ci ildə 174000-dən çox uşaq doğulub ki, onlardan da 53 faizi oğlan, 47 faizi qızdır. 2013-cü ildə dünyaya gələn 172600 uşaqdan 53,6 faizi oğlan, 46,4 faizi qız olub. 2014-cü ildə bu rəqəm müvafiq olaraq 53,2 və 46,8 faiz təşkil edib.

Bu rəqəmlər qızların sayının azalmasının gələcəkdə doğuracağı fəsadların mənzərəsini tam təsvir etməsə də, yaxın 10 ildə oğlanların ailə qurmaq üçün qız tapmayacağının şahidi olacağıq. Fikrimizi təsdiqləyən Milli Məclisin deputatı Aydın Mirzəzadə deyir ki, xeyli zamandır cəmiyyətdə müzakirə edilən bir problemin ağırlaşması artıq özünü göstərməkdədir. Bəzi valideynlərin uşaqların dölünü tibbi avadanlıqlar vasitəsilə müəyyənləşdirdiyi bəllidir: **"Bundan sonra valideynlərin ancaq oğlan döllərini saxlamasının ağır nəticələrə gətirib çıxaracağı barədə çox danışılıb. Nəticə olaraq demək istəyirəm ki, 5-10 ildən sonra ailə qurmaq istəyən oğlanlar artıq ölkəmizdə qız çatışmazlığı ilə üzləşəcəklər".**

**Oğlanlar evlənməyə qız tapmayacaq...**

2009-cu ildə əhalinin 54%-i qadınlar, 46%-i kişilər olub. Lakin son vaxtlar selektiv abortlar nəticəsində qızların sayının azalması müşahidə edilir. Sosioloqların hesablamalarına görə, bu cür davam edərsə, 2020-ci ildə hər 4 oğlana bir qız düşəcək. Bu isə demoqrafiyanın pozulması deməkdir. Düzdür, doğulan uşaqlar arasında oğlanlar çoxluq təşkil etdiyi kimi, müəyyən yaş həddində ölən uşaqlar arasında da oğlanlar çoxdur. 45-50 yaş arası ölüm hallarında da kişilərin sayı çoxdur. Bu ölümlər bir tərəfdən balansın pozulmasının qarşısını alsa da, evlilik yaşında oğlanlar özlərinə yaş baxımından uyğun tərəf-müqabili tapa bilməyəcəklər. Bir vaxtlar kişilərimiz əcnəbi ölkələrdən xanımlara maraq göstərirdilər, qızlar evdə qalırdı. Bu gün müşahidə olunan vəziyyət gələcəkdə oğlanlarımızın evlənməyə qız tapmayacağı deməkdir. Azərbaycanlı qızların sayının az olması səbəbindən onlar əcnəbi qızlarla ailə qurmaq məcburiyyətində qalacaqlar, qarışıq ailələrin sayı artacaq ki, bu da milli kimliyin tədricən dəyişməsinə səbəb olacaq.

**Qanunlar nə deyir...**

Bir çox dini ölkələrdə ölkə qanunlarına əsasən abort qəti qadağan olunub. Ümumiyyətlə götürdükdə isə bu, cinayət olduğu qədər həm də günahdır.

ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Suriya, Misir, Çin, Əfqanıstan, İran, İraq və Yəmən kimi ölkələrdə abort qadağan olunmaqla yanaşı, daxili orqanlara qarşı cinayət sayılır. Belə ki, yalnız uşağın anadan olması ananın həyatına təhlükə törədərsə, aborta icazə var. Bəzi Avropa ölkələrində abort etdirmək üçün qadının istəyinin olması kifayət etdiyi halda, İngiltərə, Macarıstan, İslandiya, Lüksemburq və Finlandiyada aborta yalnız sosial və tibbi göstərişlər əsasında icazə verilir.

Azərbaycanda isə qanunvericilik abortları qadağan eləmir. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində göstərilir ki, hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ var. Amma Cinayət Məcəlləsinin 116-cı maddəsinə görə, qadını abort etdirməyə məcbur etmək cinayət məsuliyyəti yaradır.

"Əhalinin sağlamlığının qorunması haqqında" Qanuna görə, hamiləliyin süni şəkildə pozulması hamiləliyin 12-ci həftəsinə qədər olmalıdır. Hamiləliyin 12-ci həftəsindən 22-ci həftəsinə qədər pozulma üçün sosial əsaslar göstərilməlidir. 22-ci həftədən sonra hamiləliyin dayandırılması ciddi tibbi göstərişilər olduğu halda qanunvericilikdə nəzərdə tutulur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, Azərbaycanda selektiv abortların qarşısının alınması üçün doğulanlar arasında cins nisbətinin pozulmasının aradan qaldırılmasına dair Tədbirlər Planı hazırlanıb. Bu, "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2014-2025-ci illər)" layihəsində qeyd edilib. Layihəyə görə, bu kimi halların qarşısının alınması üçün ölkədə doğulanların cins nisbətinin monitorinqinin həyata keçirilməsi nəzərdə tutulur. Diri doğulanların cins strukturunda 1990-cı illərin əvvəllərindən oğlan uşaqlarının artımı müşahidə olunur. Hazırda hər 100 doğulan qıza 116 oğlan düşür (bioloji norma göstəricisi 105-107 təşkil edir). Bu hal ilk növbədə valideynlər tərəfindən uşağın cinsinin seçimi ilə bağlı verdiyi qərar və selektiv abortlarla izah olunur. Ölkədə qadınların reproduktiv potensialının tədricən azalmasını (nəsillərin əvəz olunması nəticəsində reproduktiv yaşda olan qadınların sayının dəyişməsini) nəzərə alaraq, Dövlət Proqramı layihəsində doğulan uşaqların sayının 2025-ci ilə kimi hazırkı səviyyədə saxlanılması əsas prioritet kimi qəbul edilir.

❑ **Fəxriyyə ABDULLAYEVA**

*Yazı BMT-nin Əhali Fondunun Azərbaycan Nümayəndəliyi (UNFPA Azerbaijan) tərəfindən keçirilən müsabiqəyə təqdim olunur.*

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016

**Bir neçə gün öncə ABŞ-ın Florida ştatının Orlando şəhərində terror hadisəsi baş verib. Bu qanlı terror 11 sentyabr terrorundan sonra ən qanlı terror aktı hesab olunur. Gecə klubunda törədilən güllə-baran nəticəsində 50 nəfər ölüb, 53-ü yaralanıb. Ağ Ev rəhbəri Barak Obama son hadisələrin hakimiyyəti və ictimaiyyəti odlu silah dövriyyəsinə nəzarətin gücləndirilməsi üzərində daha ciddi düşünməyə vadar edəcəyinə ümidvar olduğunu bildirib.**

# "Bəzi gənclər gəlib tapança satıb-satmadığımızı soruşur"

## Silah mağazalarında satışa necə nəzarət edilir; ən ucuzu 950, ən bahalısı isə 7000 manata satılan "Vinçester"lər...

Bu məsələ, həmçinin son vaxtlar ölkəmizdə odlu silahla törədilən qətllərin sayının artması Azərbaycanda da silah mağazalarına nəzarətin gücləndirilməsi məsələsini gündəmə gətirir. Azərbaycanda mağazalarda yalnız ov silahlarının satıldığı deyilsə də, iddialara görə, qanunla qadağan olunmuş silahlar da əldə etmək mümkündür. Faktlar göstərir ki, ölkədə odlu silahla törədilən cinayət olaylarının sayında ciddi artım tendensiyası var. Bu da əhalidə kifayət qədər tüfəng olduğunu deməyə əsas verir. Odu silahla törədilən əksər cinayətlərdə bu silahın qanunsuz saxlanıldığı da aşkara çıxır. Bu isə o deməkdir ki, silah mağazalarında kimə gəldi silah satırlar. Təbii ki, bunu bütün silah mağazalarına aid etmək olmaz.

Ümumiyyətlə, silahların qiyməti, alıcıları ilə maraqlanmaq üçün yolumuzu silah mağazalarından saldıq.

**Metronun "Qara Qarayev" stansiyası yaxınlığında yerləşən ov tüfəngi mağazasında silahları sifarişlə gətirdiklərini dedilər. Hazırda orada olan silahlar isə əsasən tir tüfəngləri idi. Satıcı Cabir Nəsirov silahların müxtəlif qiymətə olduğunu dedi:** "Bizdə ov tüfənglərinin əksəri Türkiyə istehsalıdır. Rusiya istehsalı olan ov tüfəngləri də olur. Qoşa lüləli Türkiyə istehsalı olan ov tüfənginin qiyməti 1050-1150 manatdır. Tək lüləli tüfənglər 950 manatdır. "Vinçester", əsl adı "Beşatılan" olan tüfəngin qiyməti isə 950 manatdır. Bunun 3 min manata olan növü də var. Qiymətlər bu tüfənglərin düzəldilməsinə, quruluşuna görə fərqlənir. Bizdə ən bahalı ov tüfəngi 3 min manatadır. Türkiyə istehsalıdır. Biz tir tüfəngləri də satırıq. Gəlib maraqlanırlar. Tir silahlarını tək şəxsiyyət vəsiqəsi ilə sata bilirik. Bunların patronu 4,5-mm-dir. 4,5-dən yuxarı olanlar artıq odlu silah sayılır ki, onları satmaq üçün psixoloji, narkotik mərkəzindən arayış tələb edirik. Çox vaxt gənclər gəlib yivli silah, tapança olub-olmaması ilə maraqlanırlar. Bu cür silahlar heç yerdə yoxdur. Satışı da qadağandır. Kimsə gəlib ov tüfəngi almaq istəyəndə onun üzünə baxanda bilmək olur ki, bu adam silahı nə məqsədlə almaq istəyir. Bəzən elə olur biri gəlib onda silah olduğunu və mağazamıza satmaq istədiyini deyir. Biz heç o adamı dinləmirik, dərhal mağazadan çıxarırıq".

Vitrində olan soyuq silah adlanan bıçaqlar da diqqətimizdən yayınmadı. Qiyməti 25 manatdan başlayan bu bıçaqların şəxsiyyət vəsiqəsi ilə satıldığını deyən satıcı bununla da maraqlananların olduğunu dedi.

Digər baş çəkdiyimiz silah mağazasında isə "Vinçester" markalı silahın ən ucuzu 1200-2000 manat, ən bahalısı isə 7000 manat dəyərində idi. Onu da qeyd edək ki, ovçu mağazalarında əsasən Türkiyə, Rusiya, İtaliya istehsalı olan silahlar satılır.









Qeyd edək ki, ölkəmizdə silah almaq, gəzdirməklə bağlı xeyli məhdudiyyətlər və sərt qaydalar var.

**Hüquqşünas Müzəffər Baxış qanunsuz silah gəzdirmə ilə bağlı Azərbaycan qanunvericiliyində xeyli sərt cəzaların olduğunu dedi:** "Azərbaycan Respublikası qanunvericiliyinə görə, yivsiz olan od silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla, qanunsuz olaraq digər odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirməyə görə cinayət məsuliyyəti nəzərdə tutulub. Bu qəbildən olan əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1-ci maddəsi ilə təsnif olunur və bu şəxslər 2 ilədək müddətə islah işləri və ya 3 ilədək azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırıla bilər. Eyni əməllər qabaqcadan bir qrup şəxs tərəfindən törədildikdə, təkrar törədildikdə 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır. Cinayət Məcəlləsinin 228.1 və 228.2-ci maddələri ilə eyni əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə 5 ildən 8 ilədək azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır. Hətta bizim Cinayət Məcəlləsinin tələblərinə görə təkcə odlu silahlar yox, qanunsuz olaraq qaz silahı, soyuq silahlar, o cümlədən soyuq atıcı silah əldə etmək, satma və ya gəzdirmək, *(soyuq silahın milli geyim ləvazimatı hesab olunduğu ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq gəzdirmə halları istisna olmaqla)* bu əməllər Cinayət Məcəlləsinin 228.4-cü maddəsi ilə təsnif olunur. Və 3 il 20 saatdan 4 il 80 saatadək ictimai işlər və ya 3 ilədək islah işləri, ya da 1 ilədək azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılır. Bundan əlavə, qanunsuz silah hazırlamağa görə cinayət məsuliyyəti Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 229-cu maddəsində bu əməllərə görə də cinayət məsuliyyəti nəzərdə tutulur və qanunsuz olaraq odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları hazırlama, habelə odlu silahı təmir etmə 3 ilədək azadlıqdan etmə cəzası ilə cəzalandırılır. Yəni qanunvericilikdə bu məsələlər öz həllini tapıb. Amma məsələnin mahiyyəti ondan ibarətdir ki, bizdə qanunsuz yollarla qadağan edilmiş odlu silahların əldə edilməsi mümkündür".

**M.Baxış qanunvericiliyin tələblərinə görə silah almaq istəyən şəxs əvvəlcə polisə və psixoterapiya mərkəzinə müraciət etməli, sənəd almalıdır:** "Bizim qanunvericiliyin tələblərinə görə, yivsiz ov silahı və həmin silah üçün döyüş sursatı əldə edən şəxslər bunu əldə etməmişdən əvvəl polis orqanlarına müraciət etməli, həmçinin arayış təqdim etməlidirlər ki, psixi vəziyyətləri sağlamdır. Bu arayış, habelə onların məhkum olunmaması, cinayət törətməməsi barədə sənədlər polis orqanlarına təqdim olunmalı və şəxsin almaq istədiyi silah polis orqanlarında qeydiyyatdan keçməlidir. Silah qeydiyyatdan keçdikdən sonra onun həmin şəxsə məxsus olması barədə polis orqanları tərəfindən onlara xüsusi vəsiqə verilir. Şəxs bu vəsiqəyə əsasən odlu silahı saxlaya bilər. Hətta vəsiqəsi olan şəxs əgər odlu silahı diqqətsiz saxlasa, buna görə Cinayət Məcəlləsinin 230-cu maddəsi ilə cinayət məsuliyyəti nəzərdə tutulub. Yəni odlu silahın diqqətsiz saxlanılması ilə yaranmış şərait nəticəsində həmin silahdan başqa şəxsin istifadə etməsi ağır nəticələrə səbəb olduqda 2 ilədək islah işləri və ya 2 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır. Məsələn, şəxs silahı diqqətsiz saxlayıb və uşaq götürüb atəş açıbsa və nəticədə kimsə xəsarət alıb, ölübsə, bu əməllər Cinayət Məcəlləsinin 230-cu maddəsi ilə təsnif olunur. Yaxud da yivsiz odlu silahı kimsə qeydiyyatla əldə edib, amma polis orqanlarında onu qeydiyyatdan keçirməyib. Bu əmələ görə də İnzibati Xətalar Məcəlləsində məsuliyyət nəzərdə tutulub. Yəni Azərbaycan reallığına uyğun silahlarla bağlı normativ hüquqi aktlar kifayət qədərdir. Amma buna baxmayaraq, bizdə qadağan olunmuş odlu silahların saxlanması, əldə edilməsi, gəzdirilməsi və digər bu kimi hallar müəyyən edilir".

❑ **Günel MANAFLI**



## "Bakıda 9 bal gücündə zəlzələ olarsa, köhnə binalar dağılacaq"

**Son zamanlar Azərbaycanda zəlzələlərin sayı çoxalıb. Bunun səbəbi Azərbaycanın seysmik baxımdan aktiv zonada yerləşməsidir.**

Respublika Seysmoloji Xidmət Mərkəzinin seysmoloji şöbəsinin müdiri Tahir Məmmədli admiral.az-a açıqlamasında bildirib ki, ölkəmizdə mütəmadi olaraq, yeraltı təkanlar olur və olacaq. Onun sözlərinə görə, ölkəmizdə əsas zəlzələ təhlükəsi olan ərazilər Şamaxı, İsmayıllı, Gəncə, Abşeron yarımadası və Bakıdır:

"Ən təhlükəli zəlzələ ocaqları Böyük Qafqazın, Kiçik Qafqazın Azərbaycan hissələrində və Xəzər dənizindədi. Bundan başqa, digər ərazilərdə orta güclü zəlzələlərin olması mümkündür. Lakin həmin ocaqlarda yeraltı təkanlar baş verərsə, yalnız həmin ərazilər deyil, digər yaxın ərazilər də titrəyişə məruz qala bilər. Şamaxı və İsmayıllıda zəlzələlər hər zaman olub və gələcəkdə də olma ehtimalı var. Eyni zamanda cənub rayonlarından Lerik və Masallıda da mütəmadi baş verir. Xəzər dənizində bir neçə ocaqlar var ki, onlar güclü seysmik təhlükəyə malikdir. "Azəri-çıraq" yataqlarının yanında kifayət qədər güclü zəlzələ ocaqları var. Bakıdan 50-60 km cənubda və şimalda yerləşən ocaqlar güclü seysmik intensivliyə sahibdir. Bunlar da Bakı üçün təhlükəlidir".

**T.Məmmədli deyir ki, bu ocaqlar gələcəkdə daha da aktivləşərsə, Bakıda 12 ballıq şkalayla 9 bala qədər çox güclü titrəyiş yarada bilər:**

"Paytaxt ərazisi baş verə biləcək yeraltı təkan 12 ballıq cədvəllə 8 bal qiymətləndirilir. Lakin yerli qurunt şəraitinə uyğun olaraq bu səviyyə arta bilər. Yəni ola bilər ki, Bakının müəyyən ərazisində 9 bal gücündə zəlzələ baş versin".

**Onun sözlərinə görə, Bakıda bu cür zəlzələ olarsa, köhnə binaların hamısı dağılacaq:**

"Bu o deməк deyil ki, sovet dövründə binalar pis tikilirdi. Sovet dövründə 1980-ci ildə seysmoloji xəritədə paytaxtın seysmik göstəriciləri Bakı və Abşeron ərazisi üçün 6 bal qiymətləndirilirdi. Sonralar bu 7 bal kimi qiymətləndirilib və 1991-ci ilə kimi bu belə olub. Bu tarixə qədər tikilən binalar 7 bala qədər dözümlü olub. İndi isə Bakıdakı tektonik zona 9 bal qiymətləndirilir. Yeni tikilən binalar isə 9 balla uyğundur".

YENİ MÜSAVAT
N 131 (6452) 16 iyun 2016

# Bakıda vəzifəli şəxsə qurulan ilginc tender oyunu

## Biri "icra başçısının müavini" olmaqla, 3 nəfər tikinti şirkətinin rəhbərini aldadıb 50 min manatını alıblar

**Bakıda ilginc dələduzluq hadisəsi baş verib. 3 nəfər əlbir olub vəzifəli şəxsi aldadaraq ondan 50 min manat pul alıb. Vəzifəli şəxsi aldadan 3 nəfərdən biri özünü icra başçılarından birinin müavini kimi təqdim edib və rayonda elan olunan tenderdə qalib olmaq üçün ona kömək edəcəyini deyib.**



Dələduzluğa məruz qalan şəxs dövlət qurumlarından birində yüksək vəzifədə çalışan Allahyar Mirzəyevdir. O, həmçinin tikinti şirkətinin sahibidir. İş adamı A.Mirzəyev tanışı Adil Musayevdən iş təklifi alıb. Belə ki, A.Musayev Quba rayonunda avtomobil yollarının təmiri ilə bağlı tender olduğunu və həmin tenderdə qalib gəlmək üçün vəzifəli dostunun olduğunu deyib. Daha sonra Allahyar Mirzəyevi Tahir adlı şəxslə tanış edib.

Adil və Tahir adlı şəxslər Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Yusif Abidovla yaxın münasibətlərinin olduğunu deyərək Allahyar Mirzəyevin etibarını qazanıblar. Tenderdə qalib gəlmək üçün icra başçısının müavininə 50 min manat vermək lazım olduğunu bildiriblər.

A.Mirzəyev bununla razılaşıb. Daha sonra üçüncü şəxs - Xanlar Məlikov ortaya çıxıb. Adil və Tahir adlı şəxslər Xanlar Məlikovu icra başçısının birinci müavini Yusif Abidov kimi təqdim ediblər və pulu ona verəcəklərini söyləyiblər.

İş adamı 50 min manatı verdikdən 2-3 ay sonra aldadıldığını başa düşüb. İşin üstünün açılması isə maraqlı olub. Belə ki, Adil və Tahir adlı şəxslər A.Mirzəyevin telefon zənglərinə cavab vermədiyi üçün iş adamı şəxsən icra başçısının müavini ilə görüşmək üçün Qubaya üz tutub. Başçının müavini Yusif Abidovla görüşən A.Mirzəyev aldadıldığını anlayıb. Bakıya qayıtdıqdan sonra polisə müraciət edib.

A.Mirzəyevin şikayəti əsasında 1969-cu il təvəllüdlü Xanlar Məlikov axtarışa verilib və Nərimanov Rayon Polis İdarəsinin 16-cı polis bölməsinin əməkdaşları tərəfindən ötən ilin sentyabr ayında saxlanılıb. Onun barəsində Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə cinayət işi açılıb. Cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə iş üzrə məhkəmə prosesi keçirilib. Zərərçəkmiş şəxs kimi tanınan Allahyar Mirzəyev ifadə verib.

İfadəsində Xanlar Məlikovu icra başçısının müavini Yusif kimi tanıdığını, Adil və Tahir adlı şəxslər tərəfindən aldadıldığını deyən A.Mirzəyev pulu onlara notarius vasitəsilə verdiyini deyib: **"Mən pulu Adilə verməli idim. O da icra başçısının müavini kimi təqdim edilən Yusifə verəcəkdi. Sonradan fikirləşdim ki, notarius vasitəsilə verim. Adil, Tahir və mən notariusa getdik. Məlum oldu ki, Adilin şəxsiyyət vəsiqəsinin vaxtı bitib. Razılaşdıq ki, Tahirə verim. Elə də oldu. Yolda Adil zəng edib Xanlara dedi ki, "Yusif müəllim pulu göndərirəm".**

**Bu söhbətdən bir müddət keçsə də bunlardan səs çıxmadı. Özüm maraqlandım. Adil dedi ki, bəs yenə pul lazımdır. İkinci dəfə məndən 150 min istədilər. Mən də bu zaman tenderlə bağlı sənədləri tələb etdim. Bu halda verə biləcəyimi dedim. Ancaq verilmədi. Xeyli vaxt keçdi. "Düzələcək" deyə-deyə məni aldatmağa başladılar. Adilə və Tahirə zəng çatmırdı. Qubaya gedəndə işin üstü açıldı. Əsl icra başçısının müavini Yusif müəllimə görüşdüm. İşin üstü açılandan sonra Adili axtarıb tapdım. Dedi ki, 3 aya pulu qaytaracam. Amma qaytarmadı. Verdiyim 50 mindən yalnız 8 minini almışam. Bu, tender yox, təndir oldu. Düşdük təndirə. Bildiyim qədəri ilə Tahiri də tutublar. Amma Adil indi də yoxdur. 4-5 telefonu var. Deyəsən, Azərbaycandan gedib".**

Məhkəmə prosesində təqsirləndirilən şəxs, hazırda şərti azadlıqda olan Xanlar Məlikov da iştirak edib. Növbəti məhkəmə prosesində X.Məlikov ifadə verəcək.

❑ **İlkin MURADOV**



## "Son zəng" şənliyində qız üstündə qan töküldü

**Gədəbəydə "Son zəng" şənliyində iki nəfər bıçaqlanıb. Kəpəz TV (Region TV) xəbər verir ki, Gədəbəy rayonunun Çaldaş kəndində məktəbdənkənar təşkil olunan "Son zəng" şənliyində kütləvi dava baş verib.**

Dava zamanı əmi oğlanları - Yaşar və Röyal Nəbiyevlər bədənin müxtəlif nahiyələrindən bıçaq xəsarətləri alıblar. Yaralılardan biri Gəncə şəhər təcili tibbi tardım xəstəxanasına, digəri isə Şəmkir mərkəzi rayon xəstəxanasına çatdırılıb. Gəncədə müalicə alan 21 yaşlı Yaşar Nəbiyevin səhhəti orta-ağır qiymətləndirilir. 18 yaşlı Royal Nəbiyev isə Şəmkir xəstəxanasının cərrahiyyə şöbəsində əməliyyat olunub. Vəziyyəti nisbətən ağır olduğundan reanimasiya şöbəsinə yerləşdirilib.

Gədəbəy Rayon Polis Şöbəsindən verilən məlumata görə, Nəbiyevlərin hansı şəraitdə və kim tərəfindən bıçaqlandığı hələlik dəqiq məlum deyil. Buna baxmayaraq, davanın iştirakçısı olan bir nəfər - 17 yaşlı Sərxan Tağıyev şübhəli şəxs kimi saxlanılıb.

«Trend»in məlumatına görə isə hadisə zamanı iki nəfəri bıçaqlamaqda şübhəli bilinən 1981-ci il təvəllüdlü Ramin Tağıyev və 1982-ci il təvəllüdlü Əli Məmmədov saxlanılıb.

İlkin məlumatlara görə, bıçaq davası sərxoşluq zəminində baş verib. Gənc yaşlarında eşqə düşən həmyerlilər kifayət qədər spirtli içki qəbul etdikdən sonra sevdikləri qıza görə qan töküblər.

Faktla bağlı cinayət işi başlanıb. Bu və digər versiyalar üzrə kütləvi davanın motivi araşdırılır.

## Sumqayıtda maskalılar yük avtomobilinə basqın edərək külli miqdarda pul apardılar

**Sumqayıtda maskalı şəxslər yük avtomobilinə basqın edib. Sumqayıt Şəhər Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Tağıyev qəsəbəsi, Yaşma bağlar sahəsi ərazisində qeydə alınıb.**

Xızı rayon sakini Eldar Mirzəyevin idarə etdiyi "KamAZ" markalı avtomobilə basqın edən üç maskalı şəxs onu döyüb, əllərini yapışqanlı lentlə bağlayaraq avtomobildə olan külli miqdarda pulu götürüb, hadisə yerini tərk ediblər.

Hazırda polis hadisəni törədən şəxslərin müəyyən edilərək tutulması istiqamətində əməliyyat-axtarış tədbirlərini davam etdirir

## Goranboyda avtomobil ağaca çırpılıb, sürücü ölüb

**Goranboyda ölümlə nəticələnən yol qəzası baş verib. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, vətəndaşa məxsus "LİFAN" markalı minik avtomobili idarəetməni itirərək yol kənarında ağaca çırpılıb.**

Nəticədə sürücü, 1987-ci il təvəllüdlü Abdullayev Ziya Şahnəzər oğlu aldığı ağır bədən xəsarətlərindən hadisə yerində ölüb.

Yanğınsöndürən-xilasedicilər tərəfindən müxtəlif kəsici alətlərdən istifadə olunmaqla meyit avtomobildən çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**
**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# Bu gün İngilis derbisidi:

# İngiltərəni ancaq qələbə xilas edə bilər

## Sonuncu dəfə Uels İngiltərə millisinə 1984-cu ildə qalib gəlib; Almaniya və Polşanı heç-heçə də qane edir






**Fransada davam edən 15-ci Avropa çempionatında ikinci tur bu gün çox gərgin keçəcəyi gözlənilən üç matçla davam edəcək. Saat 17:00-da İngiltərə millisi Uelslə münasibətləri aydınlaşdıracaq. Saat 20:00-da Ukrayna-Şimal İrlandiya qarşılaşması başlayacaq. Günün son oyunu isə saat 23:00-da Almaniya və Polşa milliləri arasında olacaq.**

İngiltərə birinci turda Rusiya millisinin son dəqiqədə vurduğu qolla iki vacib xal itirib. İki ingilis millisinin qarşılaşmasında Roy Hocsonun Fransada ən gənc komandası favorit hesab oluna bilər. İngilislər ilk oyunda da göründüyü kimi, Fransaya yaxşı komanda ilə gəlib. Komandanın hücum xəttinə baxın: kapitan Runi, Harri Keyn, Deniel Starric, Ceymi Vardi. Bu, sadəcə, soyadlar deyil, milyonları özündə birləşdirən Avropa markasıdır...

Uels də Slovakiya millisinin qapısına ilk qolu vuran Qaret Beyli ilə qürur duya bilər. "Real"ın oyunçusu sanki bütün komandanı tək arxasınca apara biləcək güc göstərir. Əgər ingilislər ruslarla oyunda qələbəni əldən verməsəydilər, bu gün iki ingilis komandası bəlkə də özlərini yormadan heç-heçəyə razılaşardılar. Uelsi heç-heçə qane edir, İngiltərə millisi isə qrupda lider olduğunu göstərmək, ruslarla oyunda təsadüfi qol buraxdıqlarını, ən əsası növbəti mərhələyə çıxmaq istədiklərini sübut etməlidir. Bunun üçün isə mütləq qələbə lazımdır. Heç-heçə indi o qədər risklidir ki, uduzmaq isə...qudbay Fransa...

Həm İngiltərənin, həm Uelsin müdafiə xətti ilk oyunda yaxşı tərəfdən özünü göstərdi. Xüsusilə Marek Xamşikin təşkil etdiyi Slovakiya hücumları qarşısında Eşli Uilyamslı Uels müdafiəsi qələbə üçün hər şey etdi. İngiltərənin populyar "Mirror" nəşri B qrupundakı bu oyunun taleyinin də əsasən, komandaların müdafiə xəttindən asılı olacağını proqnozlaşdırır.

İngiltərə millisinin sabiq üzvü Alan Şirer BBC-yə deyib ki, Roy Hocson Uelslə oyunda Harri Keynə yenidən şans verməlidir. **"İlk oyunda hücumların sonunda xeyli səhvlər buraxan Keynə və Starrlicə yenidən şans vermək, oyunları alınmazsa, o zaman əvəzləmək lazımdır. Harri Keyn əla futbolçudur. Amma o da Rusiya ilə oyunda yorğun görünürdü"** deyə, Şirer bildirib. Runi isə deyib ki, bu gün komanda Rusiya ilə oynadığı kimi futbol sərgiləsə, hər şey qaydasında olacaq.

Statistikaya gəlincə, komandalar arasında indiyədək 103 oyun keçirilib. Bunların 68-də ingilislər, cəmi 14-də isə Uels millisi qalib gəlib, 21 oyun heç-heçə bitib. Sonuncu dəfə Uels İngiltərə millisinə 1984-cü ildə qalib gəlib. Uels bu tarixi dəyişə biləcəkmi?
















### Ukraynanı "maşın" vurub, amma...

Ukrayna ilk turda son dünya çempionu Almaniya ilə qüvvəsini sınadı və 2:0 məğlub oldu. Amma necə oyunda? Hansı komandaya? Ukrayna-Almaniya qarşılaşmasına Rusiya kanallarının şərhçiləri Ukrayna millisi haqda ən yaxşı və əlbəttə ki, haqq etdikləri sözləri dedilər, ukraynalılara hətta açıq azarkeşlik də etdilər. Bu obyektiv mövqedə heç bir siyasi çalar axtarmağa dəyməz, ukraynalılar Mixail Fomenkonun rəhbərliyi altında Rusiyadan bir baş üstün, təşkilatlanmış bir komanda yaradıblar və ən xoş sözlərə layiqdirlər.

Amma nə edəsən ki, rəqib də rəqib deyildi, futbol maşını idi... Mixail Fomenko almanlarla oyundan sonra elə belə də deyib: **"Heç bir sürpriz olmadı. Oyunçular da bilirdilər ki, rəqib kimdir, kimə qarşı oynayırıq...** Maşın maşındır". Baş məşqçi deyib ki, Almaniyaya məğlubiyyət artıq keçmişdir və komada Şimali İrlandiya ilə oyuna həm psixoloji, həm fiziki hazırlaşıb. Fomenko deyib ki, Şimali İrlandiya və Polşa ilə oyun Ukraynanın qrupdan çıxıb-çıxa bilməyəcəyinə aydınlıq gətirəcək.

"Dnepr" klubunun baş məşqçisi Miron Markeviç Ukraynanın növbəti mərhələyə çıxacağını deyib: **"Ukrayna heç bir panikaya düşmədən öz gücünə inanmalıdır. Fikrimcə, biz qrupdan çıxmalıyıq".** Markeviçin sözlərinə görə, hamı Almaniyana ilə oyundan danışır, amma Şimali İrlandiya ilə oyundan qorxmaq lazım: **"Şimali İrlandiya kombinasiyalı və müdafiədən oynayan, rəqibinə isə oyun meydanı verməyən komandadır. Məncə, ən çətin qarşılaşma Şimali İrlandiya ilə olacaq".**

Ukrayna və Şimali İrlandiya milliləri indiyədək 4 dəfə qarşı-qarşıya gəliblər. Ukrayna millisi iki oyunda qələbə qazanıb, iki oyun isə heç-heçə bitib. FİFA-nın reytinq cədvəlində də ukraynalılar bugünkü rəqiblərindən öndədirlər. Ukrayna 19-cu, Şimali İrlandiya isə 25-ci yerdə qərarlaşıb. Daha maraqlı bir fakt: Şimali İrlandiyanın baş məşqçisi Maykl Onil 1996-cı ildə indi rəhbərlik etdiyi millinin heyətində Ukraynaya qarşı oynayıb.

### Polşa və Almaniya ya heç-heçəyə razılaşar, ya da...

Polşa ilk turda Şimali İrlandiya ilə görüşdə minimal hesabla (1:0) qələbə qazanıb və bu gecəki görüşdə heç-heçə polşalılar üçün ən məqbul variantdır. Əgər bu, Almaniyanın da planlarına daxildirsə...

Almaniya belə çempionatlardakı ilk görüşündə adətən açıq oyun nümayiş etdirməz, komanda üçün lazım olan xalı əldə edib köşəsinə çəkilərdi. Bu dəfə isə "alman maşını" ilk turdan açıq oyuna üstünlük verdi. Almaniyanın rəqibləri buna görə Fomenkonun komandasına minnətdar olmalıdır. Çünki Ukrayna Almaniyanı oynamağa, hücum xəttini, müdafiəsini göstərməyə məcbur etdi. Amma bəlkə almanlar da özləri bilərəkdən "maşının səsini" daha güclü etdilər ki, Fransaya iddialı gələn bəzi komandalar "qazlarından" indidən bir az alsınlar...

Bəzi mütəxəssislər hesab edir ki, Almaniyanın topa nəzarəti və hücumların yüksək səviyyədə təşkili müdafiədəki problemləri gözardı etmir. Almaniya cərimə meydançasında rəqibə zərbə vurmağa imkan verir.

Polşa millisi və Almaniya bir-birilərini o qədər yaxşı tanıyırlar ki, onların oyunlarının videoyazısını izləməyə bəlkə də ehtiyac qalmır. Almanlar inkar edirlər, amma polşalıların futbolu da, futbolçularının oyunu da bir-birinə çox oxşayır.

Almaniya millisinin baş məşqçisi Yoahim Löv bugünkü oyun haqda danışarkən deyib ki, V qrupundakı iki komanda-Ukrayna və Polşa futbolu bir-birinə çox bənzəyir. Məşqçinin sözlərinə görə, Ukrayna kimi Polşa da oyunu müdafiədən qurur, 3-4 futbolçunu əks-hücumlar üçün görəvləndirir. Polşa Şimali İrlandiyaya minimal hesabla qalib gəlib və bu oyun əksər mütəxəssislərin yekdil rəyinə görə "Avro-2016"nın ilk turunda ən baxımsız oyun hesab olun bilər. Matçda yeganə qolu 51-ci dəqiqədə Arkadiuş Milik vurub. İrlandiyalılar Polşa millisinin qapıçısı Voytsex Şesnın qapısına yaddaqalan hücum təşkil edə bilməyiblər.

Almaniya və Polşa komandaları "Avro-2016"nın seçmə mərhələsində bir qrupda olublar. Polşa Berlində 3:1 hesabı ilə məğlub olub. Varşavada isə polşalılar Almaniya millisinin 18 matç ardarda uduzmaması seriyasına son qoyub. Polşa 2: 0 hesabı ilə qalib gəlib. FİFA-nın reytinq cədvəlində Polşa 27-ci, Almaniya isə 4-cüdür. Bu komandalar arasındakı 12 qarşılaşmanın 8-də almanlar, yalnız birində Polşa qələbə qazanıb, 3 oyunda isə heç-heçə qeydə alınıb.

**Maraqlı oyunlar olacaq, mütləq izləyin...**

**❑ Nazim SABİROĞLU**

# YENİ MÜSAVAT

Son səhifə

*N 131 (6452) 16 iyun 2016*




## Roman oxuyan insanlar daha anlayışlı olur

Amerika mətbuatı professor Matthijs Balın roman mütaliəsi ilə bağlı fikirlərinə geniş yer verib. Həmin fikirlərə görə, insanın oxuduğu romanların sayı artdıqca çevrəsindəki insanları daha yaxşı anlamasına səbəb olur. Professor tələbələrin də iştirakı ilə iki təcrübə aparıb. İlk təcrübə zamanı M.Ball 36 tələbəsinə Yaponiyadakı nüvə fəlakətləri və Liviyadakı aksiyalarla bağlı qəzet xəbərlərini oxumağı tapşırıb. İkinci təcrübədə isə 50 tələbə Coze Saramaqonun "Korluq" adlı romanını oxuyub. Professor öncə müəyyənləşdirib ki, tələbələr həqiqi qaynaqlar yerinə xəyal məhsulu olan romanlara daha çox maraq göstərir. Bundan başqa, onlar xəyal məhsulu olan xarakterlərlə özləri arasında bir bağ quraraq həqiqi hadisələrdən uzaqlaşmağı tərcih edirlər: "Roman oxuyarkən özümüzü itirdiyimiz an tamamilə başqa bir dünyaya keçirik. Romandakı qəhrəmanların hiss etdiklərini asanlıqla hiss edə bilir və sanki onun düşüncələri bizim düşüncələrimizdir kimi davrana bilirik. Bunun sayəsində həqiqi həyatda qarşımıza çıxan insanların fərqli fikirlərini və problemlərini daha yaxşı qəbul edə bilirik".

# Məhkuma "bəy otağı" hazırladılar

Səudiyyə Ərəbistanındakı türmələrdən birinin kamerası ilginc formada bəzədilib. Buna səbəb həmin kamerada saxlanan 30 yaşlı məhkumun zifaf gecəsinin orda keçirilməsidir. Nikah mərasimi Burayda şəhərindəki penitensiar xidmətin binasında baş tutub. Türmə əməkdaşı Saleh al-Korzai deyib ki, kameranı bəzəmək qərarı bayram əhval-ruhiyyəsi yaratmaq məqsədi daşıyıb. Onun sözlərinə görə, Səudiyyə Ərəbistanındakı islah müəsssisələri hər zaman məhkumlar üçün sağlam, təhlükəsiz və komfortlu atmosfer yaratmaq məqsədi daşıyıb.



Xatırladaq ki, Burayda şəhəri əl-Qasım əyalətinin mərkəzi hissəsində yerləşir. 2014-cü ilin hesablamalarına görə, orada 400 min nəfər yaşayır.

# Qızlar məhbusu bəyəndilər, o da maneken oldu

32 yaşlı keçmiş məhbus model olub. Lenta.ru saytının xəbərinə görə, Ceremi Meksin maneken kimi ilk fotosu artıq İnstaqram səhifəsində yer alıb. Keçmiş məhbusu 260 min nəfər izləyir. Onun ilk professional fotoçəkilişini bəyənənlərin sayı isə 24 min nəfər olub. Onunla maneken kimi müqaviləni isə "White Cross Management" şirkəti bağlayıb. Onun yaraşıqlı məhbus kimi populyarlıq qazanması təsadüfi deyil. Hər şey onun 2014-cü ildə həbs olunmasından sonra şəhər polisinin facebook səhifəsində şəklinin yer almasından sonra başladı. Məhz həmin foto 100 min dəfə bəyənilmişdi. Sosial şəbəkə istifadəçiləri onu cazibədar və olduqca yaraşıqlı hesab etmişdilər. Ötən il Miks qanunsuz silah saxlamağa görə 27 ay həbsə məhkum olunmuşdu. Amma Kaliforniya türməsi onu yaxşı davranışa görə vaxtından əvvəl azadlığa buraxıb. Elə azadlığa çıxandan sonra maneken və aktyor olmaq qərarına gəldiyini açıqlayıb.



## Kenquru səhər yeməyi üçün kafeyə girdi

Avstraliyanın Melburn şəhərində yerləşən bir kafeyə səhər saatlarında kenquru daxil olub. Hələ müştərilərin ayaq açmadığı bir saatda kafeyə girən heyvan ədəb-ərkanla masalardan birində oturub. Səhər yeməyi masası ətrafında oturan kafe işçiləri isə dərhal heyvanları müdafiə təşkilatına zəng ediblər. "Helping Hands Animal Rescue" təşkilatının nümayəndələri hadisə yerinə gələrək, heyvanın restorandan çıxmasına yardım ediblər. Kenqurunun tutulması, maşınla aparılması isə heç də asan başa gəlməyib. Baş verənlərin videoyazısı kafenin facebook səhifəsində yer alıb və onu 16 min nəfərdən çox adam izləyib. Kafe rəhbərliyi videonu bu adla paylaşıb: "Kenquru bizimlə səhər yeməyi yemək istədi"...

Amma kenquru yaxalanan zaman yüngül xəsarət alıb. "Helping Hands Animal Rescue" könüllüləri onun kafedən çıxmasına və maşına minməsinə kömək ediblər, daha sonra isə azadlığa buraxıblar.




**QOÇ** - Öz fikirlərinizi diqtə edərkən qətiyyən qərəzli mövqe nümayiş etdirməyin. İndiki həssas məqamda inadkarlıq sizi nüfuzdan sala bilər. Saat 16-18 aralığında maliyyə və sənədləşdirmə işlərinə vaxt ayırın.

**BUĞA** - Ətrafdakılarla münasibətlərdən, dolaşıqlıqlardan özünüzü qoruyun. Yeni istehsalat və yaradıcılıq layihələri üzərində işə başlamaqdan vaz keçin. Sevdiyiniz adamlara qarşı qısqanc olmayın, heç olmasa bu gün.

**ƏKİZLƏR** - Sükut etmək və ya mövcud olmayan məsələlər barədə xəyal qurmaq sizə zərərdir. Artıq ayılmaq və irəli şığımaq məqamıdır. Ulduzlar bu gün sizə maliyyə yenilikləri də vəd edir, amma səfərə çıxmaq olmaz.

**XƏRÇƏNG** - Adi bir təbəssüm, xoş bir söz ətrafda olanların sizə münasibətinə müsbət təsir edə bilər. Elə isə sadə görünən bu savaba qol qoyun. İndi sizə nüfuzu yüksəltmək hava və su kimi lazımdır.

**ŞİR** - Həyatınızın ötən dönəmlərində baş verən hadisələrdən nəticə çıxarın. Analitik təhlillər sizə mütləq kömək edəcək. Başqalarını, yaxud həyatın özünü ittiham etməkdənsə, buraxdığınız səhvləri təkrarlamayın.

**QIZ** - Ümumən uğurlu olan bir təqvimlə baş-başasınız. Görəcəyiniz işlərdə bütün addımları təkbaşına atın, amma münasibətləri qorumağı da yaddan çıxarmayın. Axşam saatlarında sürprizlərə hazır olun.

**TƏRƏZİ** - Yeni işlərə başlamaq üçün çox münasib vaxtdır. Ötən yarım ayda reallaşdıra bilmədiyiniz layihələrə yenidən baxmağa dəyər. Göy qübbəsi səfərə çıxmağınızın əleyhinə olsa da, məhəbbətdə uğurlar vəd edir.

**ƏQRƏB** - Bu gün öyrəndiklərinizə etibar etməyin, çünki tezliklə aydın olacaq ki, bu, məkrli təxribat, yaxud saxtalıqdan başqa bir şey deyil. Kütləvi informasiya vasitələrində fakt və həqiqətdən uzaq şayiələrə uymayın.

**OXATAN** - Bu gün ilk növbədə çalışın ki, ətrafınızda sağlam düşüncəli adamlar olsun. Əks təqdirdə yanlışlığa yol verib ovqatınızı pozacaqsınız. Etibalılıq faizi aşağı olan şəxslərin məsləhətlərinə qulaq asmayın.

**OĞLAQ** - Astroloji göstəricilər işlərinizin qaydasına düşdüyünü göstərir. Amma tempi bir az da artırmaq olar. Qərəzdən uzaq olmaqla qarşıda duran vəzifələrin öhdəsindən gələ bilərsiniz. Bu gün duzlu qidalardan uzaq olun.

**SUTÖKƏN** - Təkəbbür və lovğalığın ən müxtəlif təzahürləri güclənə bilər. Bu səbəbdən mübahisə və yalanlardan qaçmalısınız. Gün ərzində pulla bağlı risk etməyin, yeni təklifləri dəyərləndirmək üçün vaxt istəyin.

**BALIQLAR** - Bürcünüzdəki planetar mənzərə yüksək təcavüzkarlıq və dava-dalaşa qoşulmaq ehtimalından xəbər verir. Bu səbəbdən gün ərzində daha çox tənhalığa qurşanın. Ulduzlar şəxsi büdcənizdə dönüşdən xəbər verir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## "Həyat yoldaşım idman maşınına hamilədir"



Amerikada ata olmağa hazırlaşan bir nəfər sosial şəbəkədə həyat yoldaşının ultrasəs görüntülərini paylaşıb. Bu maraqlı paylaşım qısa müddət ərzində sürətlə yayılıb və ciddi rezonans doğurub. Çünki ana bətnində görünən mənzərə uşaqdan daha çox idman maşınına bənzəyir. Brewhaus3223 adlı istifadəçi paylaşdığı şəklin altına isə bu sözləri yazmışdı: "Mənim həyat yoldaşım bir idman maşınına hamilədir". 450-dən çox şərh gələn şəklin hansı səbəbdən maşına bənzəməsi isə sual olaraq qaldı. Amma həkimlər izah edirlər ki, bəzən utrasonda real mənzərəni əks etdirməyən körpə görüntüləri çıxa bilər. Bu, kompüter xətası sayılır.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750